

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

*Doğma, canım-varlığım qədər sevdiyim*
*Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 23 (24.458)

*21 iyun 2025-ci il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*

# Qardaşlığın qürur tablosu



Səhifə ➡ 3

# Tarixi ədalətə, milli irsə Böyük Qayıdış



Azərbaycanın son 5 ildə həyata keçirdiyi siyasətin ana xəttini, birinci növbədə, işğaldan azad olunmuş Qarabağ torpaqlarına Böyük Qayıdış təşkil edir. Bu baxımdan Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə qəbul olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası müstəsna əhəmiyyət daşıyır. Bundan başqa, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək 5 Milli Prioritetindən biri kimi də müəyyən olunub ki, bu da dövlət siyasətində bu istiqamətdə görülən işlərə necə böyük yer ayrıldığını, önəm verildiyini təsdiqləyir. Ötən müddətdə Azərbaycanın heç bir beynəlxalq maliyyə qurumundan dəstək almadan Qarabağda, Şərqi Zəngəzurda iri layihələr reallaşdırması, mərhələli şəkildə soydaşlarımızın öz yurdlarına köçürülməsi, ümumilikdə, qarşıya qoyulan hədəflərə nail olunması bir daha göstərir ki, Prezident İlham Əliyev diplomatiyası, siyasi iradəsi dönməzdir, qətidir, irəli sürülən konsepsiya, yol xəritəsi alternativsizdir.

Respublikamızda qəbul olunan və inkişafa yönələn bütün dövlət sənədlərində olduğu kimi, işğaldan azad olunmuş ərazilərə qayıdışa dair Dövlət Proqramının da əsas məqsədi məhz soydaşlarımızdır, onlar üçün layiqli həyat və iş şəraitinin yaradılmasıdır. Bu mənada, proqramdan irəli gələn Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının gücləndirilməsi, azad edilmiş ərazilərdə istehsal sahələrinin yaradılması, doğma yurdlarına geri dönən keçmiş məcburi köçkünlərin məşğulluq imkanları, insan kapitalının inkişaf etdirilməsi, sosial dəstək mexanizmlərinin geniş tətbiqi kimi məsələlər diqqətdə saxlanılır.

Səhifə ➡ 4



# Azərbaycanın ən böyük sərvəti – *Heydər Əliyevin siyasi irsi*

Dünya təcrübəsi göstərir ki, hər bir xalqın yaranmış tarixi imkandan bəhrələnərək öz müstəqil dövlətini qurması, ilk növbədə, lider amili ilə bağlı olmaqla onun yaradıcı təfəkkürü, siyasi əzmi, yüksək intellekti, qətiyyəti və dövlətçilik səriştəsi sayəsində gerçəkləşir. Bütövlükdə, millətin taleyində tarixi dönüşə zəmin yaradan taleyüklü məqamlarda bir daha təsdiqlənir ki, əsl siyasi lider öz cəsarəti, çevik və prinsipial qərarları, ən çətin şəraitdə çıxış yolu tapmaq məharəti ilə seçilən fitri istedada malik insanlardır. Milli tariximizə bu kimi keyfiyyətləri ilə öz adını əbədi həkk etmiş lider Heydər Əliyevdir. Məhz bu nadir tarixi sima XX əsrin sonunda xalqımızı əsrlərboyu can atdığı həqiqi müstəqillik amalına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüş, onun dayanıqlı inkişafı üçün etibarlı zəmin yaratmışdır.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində Ümummilli Liderimizin şəxsiyyəti, Onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarixboyu arzuladığı milli dövlətçilik amallarını məhz Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qura bilmişdir.

Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır və bu irs heç zaman tükənməyəcəkdir. Hər zaman Azərbaycan xalqının mənafeyini düşünən Heydər Əliyev azərbaycanlı olması ilə fəxr edirdi. Dahi rəhbərin ***"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"*** müdrik kəlamı dillər əzbəri olmuş, hər bir azərbaycanlının iftixarla səsləndirdiyi şüara çevrilmişdir.

Ümummilli Liderimizin 1969-1982-ci illərdəki əvəzsiz xidmətlərinə nəzər salanda bir daha aydın olur ki, Heydər Əliyev hələ o dövrdə respublikaya rəhbərlik etdiyi vaxtlarda ölkəmizdə qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə, strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin inşasına nail olmaqla Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş ittifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etmiş, müstəqilliyimizə zəmin yaradan uzaqgörən və müdrik addımlar atmışdır.

Ulu Öndər 1969-cu ilin 14 iyul tarixində birinci dəfə siyasi hakimiyyətə gələndə Azərbaycan iqtisadi və mədəni sahədə tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin hakimiyyətə gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mədəniyyətin tərəqqisi dövrü yaşanmışdı. Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin bir şəkildə inteqrasiyası prosesi hələ 1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır. Ötən əsrin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərində müstəqillik hərəkatının geniş vüsət alması Heydər Əliyevin hakimiyyətinin birinci dövründəki həmin iqtisadi yüksəliş və ona paralel olaraq tarixi fürsətdən dərhal bəhrələnməyə hazır milli mübarizlik ruhunun təşəkkül tapması sayəsində mümkün olmuşdur.

Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri SSRİ-nin bir sıra respublikalarında özünü aşkar göstərdiyi halda, güclü iradə sahibi olan Heydər Əliyev Azərbaycanda yaradıcı insanlar üçün sərbəst düşünmək və düşündüyünü tam ifadə etmək, Azərbaycanın dövlətçilik tarixində müstəqilliyi təmin edən dəyərlərə aparan yolları tapmaq imkanı verən bir şərait yaratmışdı. Məhz həmin illər ərzində Azərbaycanda böyük abadlıq-quruculuq işləri aparılmış, dahi liderin təşəbbüsü ilə çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdu. Ulu Öndər Azərbaycan xalqının tarixi keçmişində, mənəvi-mədəniyyət tarixində iz qoymuş şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi. Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, tarixi şəxsiyyətlərin hər biri üçün mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmış, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileyləri müntəzəm surətdə qeyd olunmuş, onlara yüksək dövlət mükafatları, orden, medallar, fəxri adlar və sair verilmişdir.

Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlardan biri də azərbaycanlı gənclərin SSRİ-nin nüfuzlu ali məktəblərinə oxumağa göndərilməsi təşəbbüsü oldu ki, bu da dəyərli təhsil ənənəsinin əsasını qoydu.

Ulu Öndərin başçılığı ilə 1969-1982-ci illərdə Azərbaycandakı intibahı şərtləndirən amillərdən biri də respublikada təhsilin inkişafına xüsusi diqqət yetirməsi, gəncliyin ana dilində təhsilinə üstünlük verməsi olmuşdur. Milli hərbçi kadrların hazırlanması da xalqın müstəqil gələcəyini görən Heydər Əliyevdən ötrü xüsusilə böyük əhəmiyyətli məsələ idi.

Ümummilli Liderin gələcəyin müstəqil Azərbaycanını nəzərdə tutaraq milli məfkurənin yüksəliş və xalqın milli dövlətçilik arzularının daha da güclənməsi üçün dövlət quruculuğu sahəsində gördüyü mühüm işlərdən biri respublikamızın xarici aləmlə elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsi üçün göstərdiyi maksimum səylərdir. Azərbaycanın tanınması üçün Bakıda ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlər təşkil olunurdu. SSRİ respublikaları və sosialist düşərgəsi ölkələrində, eləcə də digər xarici ölkələrdə Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi.

Azərbaycan xalqı milli dövlətçiliyini itirmək təhlükəsi qarşısında qaldığı, ən ağır günlərini yaşadığı bir zamanda taleyini yenə də Heydər Əliyevə etibar etmişdir. 1993-cü ilin iyununda AXCP-Müsavat cütlüyünün səriştəsiz üsul-idarəçiliyi dövründə ölkədə kəskin hakimiyyət böhranı yaranmış, ictimai-siyasi sabitlik pozulmuş, xaos və anarxiya, hərcmərclik mühiti formalaşmış, vətəndaş qarşıdurması dərinləşmiş və nəticədə, ölkə nəinki siyasi süquta sürüklənirdi, hətta Azərbaycanın bir dövlət kimi mövcud olacağı belə təhlükə altında idi. Hadisələrin sonrakı gedişi də təsdiqlədi ki, yalnız Heydər Əliyev kimi dəmir iradəyə, fitri idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik xarizmatik dahi lider xalqı bu sarsıntı və təlatümlərdən çıxara, Azərbaycanın dövlət müstəqilliyini qoruyub möhkəmləndirə bilərdi. Təsadüfi deyil ki, Ulu Öndərimizin rəhbərliyi altında tezliklə hakimiyyət böhranı tam aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrindəki qanunsuz silahlı dəstələr, dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər zərərsizləşdirildi, ölkədə ictimai-siyasi sabitlik bərpa edildi ki, bütün bunlar Azərbaycanda ardıcıl və sistemli şəkildə demokratik və hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyəti və yeni iqtisadi münasibətlərin formalaşmasına, əsaslı islahatların aparılmasına imkan verdi. Ümummilli Liderimiz Heydər Əliyevin qətiyyəti və fövqəladə rəhbərlik bacarığı sayəsində tezliklə siyasi-iqtisadi və sosial-mədəni həyatın bütün sahələrində mühüm nailiyyətlər əldə olundu. Müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbulu, demokratik yolla prezident, parlament, habelə bələdiyyə seçkilərinin keçirilməsi, Şərqdə ilk dəfə olaraq ölüm cəzasının ləğvi, kütləvi informasiya vasitələrinə sərbəst fəaliyyət imkanlarının verilməsi, senzuranın ləğvi, siyasi plüralizm və çoxpartiyalı sistemin dəstəklənməsi, "Əsrin müqaviləsi"nin imzalanması, dünya əhəmiyyətli qlobal neft və qaz kəmərlərinin çəkilişi, günü-gündən artan iqtisadi yüksəliş bu qəbildəndirlər.

Dövlət quruculuğu və idarəçiliyinin mahir ustası olan dahi Heydər Əliyev Azərbaycanın perspektiv inkişaf prioritetlərini olduqca düzgün qiymətləndirərək çox gözəl bilirdi ki, qurduğu dövlətin yaşaması və əbədi olması üçün o, dünya tərəfindən qəbul edilən beynəlxalq hüquqa əsaslanmalıdır. Ona görə də Ulu Öndər tezliklə sivil dünya dövlətlərinin çoxillik təcrübəsindən bəhrələnərək demokratik prinsipləri özündə ehtiva etməklə Azərbaycanın milli maraqlarına xidmət edən hüquqi islahatlara başladı. Aparılan hüquqi islahatların tərkib hissəsi kimi ilk milli Konstitusiyanın ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi, Konstitusiya Məhkəməsinin yaradılması, "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Məhkəmə və hakimlər haqqında", "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və sair qanunlar, məcəllələr yeni yaranmış müstəqil dövlətin yaşaması və möhkəmlənməsi üçün olduqca mühüm idi. Qeyd olunmalıdır ki, Azərbaycan postsovet məkanında qətimkan tədbiri kimi həbsin seçilməsi səlahiyyətini məhkəməyə verən və bununla da "Habeas Corpus" prinsipini tətbiq edən ilk dövlətlərdən oldu.

Hüquqi dövlət quruculuğunun Azərbaycan modelini yaratmış Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu məhkəmə-hüquq islahatları bu gün də uğurla davam edir. Həyata keçirilən hüquqi dövlət quruculuğu prosesi, genişmiqyaslı məhkəmə-hüquq islahatları ədalətli cəmiyyətin, demokratik hüquqi dövlətin qurulmasına yönəlmişdir. Dünya təcrübəsi göstərir ki, hüquqi dövlətin qurulması güclü prokurorluq sisteminin formalaşdırılması ilə sıx bağlıdır. Dövlətimizin həyatında əhəmiyyətli yer tutan prokurorluğun insan hüquq və azadlıqlarının təmin edilməsində, demokratik inkişafa maneə yaradan halların aradan qaldırılmasında, məhkəmə-hüquq islahatlarının uğurla həyata keçirilməsində, ədalət mühakiməsinin beynəlxalq tələblərə cavab verən səviyyədə formalaşmasında və ictimai-siyasi həyatın bütün sahələrində müstəqil dövlətimizin hüquqi bazasının möhkəm təməllər üzərində qurulmasında böyük rolu vardır.

Yüksək qürur hissi ilə deyə bilərik ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır. Bu gün Azərbaycan ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi yolla irəliləməklə insan hüquq və azadlıqlarının təminatı, demokratikləşmə sahəsində yeni-yeni uğurlara imza atır. Dövlət başçısı cənab İlham Əliyev haqlı olaraq bəyan edir ki, ***"Hər hansı ölkənin sabit və davamlı inkişafı heç də təbii sərvətlərin zənginliyi ilə deyil, demokratikləşmə proseslərindən, qanunun aliliyinin qorunmasından, vətəndaş cəmiyyəti təsisatlarının inkişafından asılıdır".*** Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş iqtisadi siyasət və misilsiz əmək nəticəsində Azərbaycan bölgənin aparıcı dövlətinə çevrilmişdir.

Azərbaycan zəngin ölkədir, onun istedadlı insanları, tükənməz təbii sərvətləri var, lakin bizim ən böyük sərvətimiz Heydər Əliyevin siyasi irsidir. Heydər Əliyevin hüquqi dövlət quruculuğunda zəngin irsinə nəzər salarkən Uinston Çerçilin sözlərini xatırlatmaq olar: "Dövlət xadiminin siyasətçidən fərqi ondadır ki, siyasətçi növbəti seçkiləri, dövlət xadimi isə gələcək nəsli düşünür". Bu sözlər sanki Azərbaycanın sabahını, xalqımızın rifahını daim düşünən Ümummilli Lider Heydər Əliyev haqqında deyilmişdi.

*Bu gün tam əminliklə söyləyə bilərik ki, hələ çox-çox illər sonra da gələcək nəsillər dahi şəxsiyyət Heydər Əliyevin misilsiz əməyi nəticəsində yaradılmış yeni hüquq sisteminin bəhrəsini görəcək və Onun Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində əvəzsiz xidmətlərinin şahidi olacaqlar.*

**Qalib İSMAYILOV**
***Naxçıvan şəhər prokuroru, baş ədliyyə müşaviri***

# Qardaşlığın qürur tablosu

### Biz dostuq, qardaşıq, müttəfiqik

İki il öncə, 2023-cü ilin soyuq bir fevral gecəsi dəhşətli bir faciə, təbii fəlakət yaşandı qardaş Türkiyədə. Ona yaxın böyük şəhər və yüzlərlə kənddə yaşayan qardaş-bacılarımız təbii fəlakətin qurbanı olmuşdu. Türkiyə və dünya tarixinin ən böyük fəlakətlərindən sayılan bu zəlzələdə şəhərlər yerləyeksan olmuş, insanlar uçqunların altında qalmışdı. Həmin gün yeganə dövlət Azərbaycan idi ki, köməyə gəlin demədən imdadına yetişmişdi qardaş Türkiyənin. Xüsusi xilasedici qruplar, tonlarla tibbi ləvazimat, tibb heyəti zəlzələ bölgəsinə çatmağa macal tapmamış Azərbaycan xalqı bir nəfər kimi ayağa qalxmış, kimisi cehiz yorğan-döşəyini, kimisi evində olan geyim-kecimini maşınlara yükləyib Türkiyəyə yola salmışdı. Ahıllar aylıq məvacibini qardaş ölkəyə yardım məqsədilə bağışlamışdı. Bütün bunları




görəndə yüz il öncəki qardaşlığımız gəlmişdi hamının ağlına. Birinci Dünya müharibəsində, Qurtuluş savaşında Azərbaycanın Türkiyəyə yardımları, Azərbaycan Demokratik Cümhuriyyətinin çətin günlərində Bakıya edilən erməni hücumlarının qarşısında sipərə çevrilən Nuru paşanın nər igidləri, Naxçıvan əhalisi ilə birləşib qədim yurdu daşnakların qanlı caynağından çıxaran türk ordusunun qəhrəmanları, Türkiyədəki Azərbaycan, Azərbaycandakı türk şəhidlərinin məzarları gəlmişdi ağıllara. Və 1990-cı illərin ən çətin günlərində Naxçıvanı aclığın məngənəsindən qurtaran "Ümid" körpüsü, 2020-ci ildə haqq davamızda uca dağ kimi arxamızda dayanmış qardaşlarımız canlanmışdı gözümüzdə .

Türkün atası Mustafa Kamal Atatürkün *" ...Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir"* kəlamı gəlmişdi ağıllara. Şuşa Bəyannaməsi ilə daha da bərkiyən qardaşlıq düşmüşdü yada.

Bəli, Tükiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın da dediyi kimi, dostluq sonradan bir-birini tanıyan insanlar arasında yaranan bağdır. Biz qardaşıq, bir ananın övladıyıq.
Bu gün hər sahədə dövlətlərimizin qardaşlığına şahid olmaq hər birimizi sevindirir. Göylərdə dalğalanan al rəngli, üçrəngli, ay-ulduzlu bayraqlar hər birimizə qürur yaşadır. Çünki biz qardaş olmaq sözünün haqqının layiqincə verildiyinə şahid oluruq.

## Prezident İlham ƏLİYEV:

***"Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub və bu gün "Azərbaycan" məhəlləsinin açılışında əziz qardaşımla birlikdə iştirakım bir daha bizim birliyimizin, dostluğumuzun təzahürüdür".***



### Azərbaycanda sizin 10 milyon bacı-qardaşınız var

Ötən gün, 19 iyunda həmin qürurlu anlardan birini yaşamağın sevincinə də şahid olduq. Türkiyənin ən böyük və qəhrəman şəhərlərindən biri olan Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılış mərasiminə şahid olub, onlarla birlikdə sevindik. Türkiyənin qəlbindəki bu qəhrəman şəhərdə, yüzlərlə insanın toplaşdığı meydanda Azərbaycan Respublikası Prezidentinin sakinlər tərəfindən alqışlarla qarşılanması türk xalqının dövlət başçımıza və Azərbaycan xalqına olan sevgisinin göstəricisidir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məhəllənin açılış mərasimində söylədiyi nitqlərdə iki qardaş ölkənin birliyini bir daha bütün dünya hiss etdi.

Ölkə başçısının açılış mərasimində dediyi kimi:

***"Azərbaycan xalqı bu faciəni öz faciəsi kimi qəbul etdi. İlk gündən on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində insani yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq borcunu yerinə yetirməyə başlamışdır. Azərbaycan dərhal mindən çox heyəti, o cümlədən axtarış-xilasetmə üzvlərini, könüllüləri, həkimləri Türkiyənin zəlzələ bölgələrinə göndərmiş və dərhal işə başlamışdır. Azərbaycan heyətləri tərəfindən 53 insan dağıntılar altından sağ çıxarılmış, bizim qurduğumuz iki səhra hospitalında 3200 insana Azərbaycan həkimləri tibbi yardım göstərmişdir.***

***Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub və bu gün "Azərbaycan" məhəlləsinin açılışında əziz qardaşımla birlikdə iştirakım bir daha bizim birliyimizin, dostluğumuzun təzahürüdür".***

### Kahramanmaraşın qəlbinə qardaşlıq möhürü vuruldu



Həmin gün "Azərbaycan"məhəlləsində Heydər Əliyev adına ibtidai məktəb və uşaq bağçası da uşaqların istifadəsinə verildi. Bu təhsil ocağında təhsil alan körpələr türkün atası Atatürk sevgisi ilə böyüyüb, müasir Azərbaycanın qurucusu Heydər Əliyev kimi dahi lideri tanıyaraq təhsilə ilk addımlarını atacaqlar. Bu körpələr məktəbə qədəm atdıqları ilk gündən iki qardaşın birliyindən güc alacaq, gələcəkdəki bağımızı daha da güclü edəcək. Prezidentlərin həmin məhəllədə təməlini qoyduğu mədəniyyət mərkəzində milliliyimizi öyrənəcəklər. Ailələrinə verilən mənzillərdə firavan böyüyüb həyata atılacaqlar.

Qeyd edək ki, dövlətimizin başçısının tapşırığına əsasən Azərbaycanın qardaş ölkəyə uzunmüddətli dəstəyi üçün Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin inşası aparılıb. Ərazisi 27,6 hektar olan məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin burada məskunlaşacaq ailələr üçün 1595 ticarət obyekti də yaradılacaq.

2024-cü il sentyabrın 11-də Heydər Əliyev adına ibtidai məktəbin və uşaq bağçasının açılışları olub.

"Azərbaycan" məhəlləsinin Baş planı üzrə 7, 8, 11 və 12-ci kvartalların tikintisi artıq tamamlanıb. 4 kvartalda 26 yaşayış binası yerləşir. Binalar hamısı 4 mərtəbəlidir. Bu binalarda, ümumilikdə, 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib.

Yüz illər keçsə də, tarixin bu şanlı günləri heç vaxt unudulmayacaq. Şuşada, Kahramanmaraşda qoşa dalğalanan Azərbaycan və Türkiyə bayraqlarının altında bu qədim xalqların övladları birlikdə dua edib, Vətən üçün can verdikcə bu torpaqlarda uyuyan şəhidlərin ruhu şad, bizim qardaşlığımız əbədi olacaq. Könül candan, Türkiyə Azərbaycandan heç vaxt ayrılmayacaq.

✍ Ramiyə ƏKBƏROVA



# Tarixi ədalətə, milli irsə Böyük Qayıdış



(əvvəli 1-ci səhifədə)

2022-ci ilin yayında Zəngilan rayonunun Ağalı kənd sakinlərinin doğma yurda qayıdışı ilə başlanan köç prosesi hazırda dinamik şəkildə davam edir, Böyük Qayıdışın sədaları Şuşada, Laçında, Füzulidə, Ağdamda duyulur. Dövlət Proqramına uyğun, ümumilikdə, 2022-2024-cü illərdə yenidən qurulan 10 kənd və şəhərdə keçmiş məcburi köçkünlərin məskunlaşması təmin olunub. Bu ilin əvvəlinə kimi Laçın, Füzuli, Şuşa, Xocalı və Cəbrayıl şəhərləri, Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış, Laçın rayonunun Zabux, Sus, Xocalı rayonunun Ballıca kəndləri öz soydaşlarını qoynuna alıb. Prezident İlham Əliyevin 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətində də dediyi kimi: ***"Artıq 10 minə yaxın keçmiş məcburi köçkün bu torpaqlara qayıdıb, onlar üçün ən gözəl şərait yaradılıb. Bütövlükdə isə azad edilmiş ərazilərdə 30 mindən çox insan yaşayır, çalışır, işləyir – həm yeni açılmış müəssisələrdə, sosial obyektlərdə, inşaat işlərində. Gələn il, təbii ki, oraya qayıdacaq vətəndaşların sayı böyük dərəcədə artacaq. Onu da bildirməliyəm ki, 2021-ci ildən bu günə qədər Qarabağın və Şərqi Zəngəzurun bərpasına Azərbaycan 19 milyard manatdan çox vəsait ayırıb və bundan sonra da Böyük Qayıdış proqramının icra edilməsi bizim üçün prioritet məsələ olacaqdır".***

Ölkə başçısının qarşıya qoyduğu hədəflər yönündə görülən işlərin nəticəsidir ki, 2025-ci ilin ötən dövründə 4 kəndə də məcburi köçkünlərin qayıdışı təmin olunub. Bunlar Ağdərə rayonunun Həsənriz və Suqovuşan, Ağdam rayonunun Sarıcalı və Kəngərli kəndləridir. Beləliklə, indiyədək işğaldan azad edilmiş ərazilərdə bərpa edilən və yenidən qurulan 14 şəhər və kənddə həyat öz axarına qayıdıb, Dövlət Statistika Komitəsinin yaydığı son məlumatlara görə, "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində bu günə qədər 3721 ailə (14843 nəfər) doğma yurdlarına qayıdıb. Ümumilikdə isə hazırda işğaldan azad edilmiş ərazilərimizdə 50 min vətəndaş yaşayır və işləyir. Özlüyündə bu rəqəmlər Azərbaycanın işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi və məskunlaşması sahəsində sürətli irəliləyişini, xüsusilə "Böyük Qayıdış" proqramının uğurla həyata keçirildiyini göstərir. Böyük Qayıdışın reallaşdırılması üçün 2025-ci ildə 4 milyard manat ayrılıb, bu vəsait həmin ərazilərdə nəzərdə tutulmuş işlərin uğurla icrasına imkan verir. Ümumilikdə isə 2020-ci ildən başlayaraq 2025-ci il də daxil olmaqla dövlət büdcəsindən Qarabağda, Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinə 22 milyard manata yaxın vəsait ayrılıb. Qeyd etdiyimiz kimi, bu ilin ötən dövründə artıq xeyli sayda keçmiş məcburi köçkün yurdlarına qayıdıb və onlara həmin ərazilərdə yaşamaq üçün hər cür şərait yaradılıb. 2026-cı ilin sonunadək "Böyük Qayıdış" proqramının I mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min keçmiş məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıdacağı planlaşdırılır.

Ermənilərin 30 ilə yaxın müddətdə Qarabağda törətdikləri vəhşilik ən çox tarixi irsimizin məhvinə yönəlib, yüzlərlə qədim abidələrimiz, dini ziyarətgahlarımız, məscidlərimiz vandallığa məruz qalıb. Təkcə bir faktı qeyd etmək olar ki, 1990-cı illərdə Qarabağ və Şərqi Zəngəzurda 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri vardı. Təəssüf ki, 30 ilə yaxın müddətdə bu abidələr ya dağılaraq bərbad vəziyyətə salınıb, ya da tamamilə məhv edilib. Başıpozuq toplum Qarabağ ərazisində olan 67 məsciddən 63-nü yerləyeksan edib. Qalan 4 məsciddən 3-nə isə ciddi ziyan vurulub. Yeganə 1 məscid, Qarabağın incisi Şuşa şəhərində yerləşən Yuxarı Gövhər ağa məscidində isə bəzi dəyişiklik edərək bu abidənin Azərbaycana aid olmadığını sübut etməyə çalışsalar da, bütün cəhdlər uğursuz olub. Azərbaycanın 2020-ci ildəki tarixi zəfəri ermənilərin əzəli torpaqlarımızla bağlı cəfəng ideyalarının üstündən birdəfəlik xətt çəkib. Məhz bu baxımdan Böyük Qayıdış proqramı çərçivəsində müasir infrastrukturun qurulması ilə yanaşı, tariximizin, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin bərpası da prioritet məqsədlərdən hesab edilir. Ötən dövrdə tarixi abidələrin inventarlaşdırılması həyata keçirilib və bərpasına başlanılıb. Heydər Əliyev Fondu dini və tarixi abidələrin restavrasiyasında, təmir-tikinti işlərində xüsusi rol oynayır, bir sıra abidələr, o cümlədən Üzeyir bəy Hacıbəylinin heykəli, Molla Pənah Vaqifin büstü və məqbərəsi, Bülbülün ev-muzeyi, Saatlı məscidi, Şuşada Aşağı və Yuxarı Gövhər ağa, Ağdam Cümə məscidləri bərpa olunub. Görülən mədəni-kütləvi tədbirlər çərçivəsində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günlərinin təşkili milli-mənəvi dəyərlərimizin bərpasına xidmət baxımından məxsusi əhəmiyyət daşıyır. Bu əlamətdar tədbirlər bölgəyə xas milli dəyərlərin yaşadılmasına geniş imkanlar açmaqla dünyaya "Bizik bu torpaqların əsl sahibi" mesajını çox aydın və dolğun şəkildə ötürür. Tarixi-mədəni irsimizə göstərilən böyük diqqətin nəticəsidir ki, zəfər rəmzimiz sayılan Şuşa 2023-cü ildə Türk dünyasının, ötən il isə İslam dünyasının mədəniyyət paytaxtı kimi mühüm missiyasını uğurla yerinə yetirdi.

Tarixi-mədəni irsimizin bərpası 2025-ci ildə uğurla reallaşdırılır, Ağdam Muğam Mərkəzinin yenidənqurma və bərpasından sonra istifadəyə verilməsi ilin birinci yarısında ən çox diqqətçəkən mədəniyyət hadisələrindəndir. Bəli, muğam Azərbaycan üçün təkcə musiqi janrı deyil, həm də tarixi miras, mədəni irs, milli kimlikdir. Bu mənada, qədim Ağdam torpağında ucalan səda yalnız muğam sədası deyil, köklü sivilizasiyaya, mədəni dəyərlərə qayıdış sədasıdır. Ağdam Muğam Mərkəzinin açılışının mayın 10-da, milli musiqimizin yaşadılması yolunda əvəzolunmaz tarixi xidmətlər göstərən Ümummilli Liderimiz Heydər Əliyevin anadan olduğu gündə keçirilməsi bu baxımdan heç də təsadüfi deyildir. Açılış mərasimində Prezident İlham Əliyevin də dediyi kimi: ***"Bu gözəl tədbirin mayın 10-da keçirilməsi, təbii ki, rəmzi məna daşıyır. Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür. Mənim üçün, hər bir vətənpərvər insan üçün əziz bir gündə bu tədbiri keçirmək, əlbəttə ki, böyük məna daşıyır. Ulu Öndərin bütün həyatı, bütün fəaliyyəti Azərbaycan xalqına, dövlətinə həsr edilmişdir və bugünkü Azərbaycan onun əsəridir".***

Göründüyü kimi, ölkə Prezidentinin rəhbərliyi ilə hazırlanan, icrası uğurla reallaşdırılan I Böyük Qayıdış proqramı çoxşaxəliliyi, universallığı ilə diqqəti çəkir, ötən müddətdə əhatə dairəsini genişləndirməklə praktik əhəmiyyətini daha da artırıb və uğurlu nəticələrini verməkdədir. Proqrama uyğun bütün işlər zəncirvari, paralel, mərhələli şəkildə reallaşdırılır, şəhər və kəndlərin Baş planları əsasında soydaşlarımızın rahat yaşaması üçün mənzil-məişət şəraiti yaradılır, yol infrastrukturu qurulur, dəmir yolu sistemi yaradılır, bununla yanaşı, gələcəyimiz olan uşaqların təhsil-tərbiyə məsələləri diqqətdə saxlanılır, eyni zamanda da köç edən insanların iş, istirahət imkanları təmin olunur. Bundan başqa, bölgələrə xas maddi sərvətlərin əvvəlki şöhrəti də özünə qaytarılır, tarixi ənənələr, milli-mənəvi dəyərlər bərpa edilir, turizm potensialı gücləndirilir, Prezidentin Qarabağın, Şərqi Zəngəzurun "yaşıl enerji zonası"na çevrilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələr uğurla icra olunur. Böyük Qayıdış sədaları bu gün Xankəndidəki Qarabağ Universitetindən, Şuşadakı Cıdır düzündən, Ağdamdakı Muğam Mərkəzindən, Zəngilandakı "Ağıllı" kənddən, Kəlbəcərdəki "İstisu"dan, Xocalı Soyqırımı Memorialından, Laçın, Füzuli, Zəngilan Beynəlxalq Hava limanlarından, minlərlə soydaşımızın yurda doğru atılan addımlarından gəlir.

Bəli, bütün bunlar belə deməyə əsas verir ki, işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi fəaliyyətə reinteqrasiyası, əhalinin öz yurdlarına təhlükəsiz şəkildə qayıtması, habelə Qarabağ və Şərqi Zəngəzurda dayanıqlı məskunlaşmanın və məşğulluğun təmin olunması istiqamətində görülən işlər Böyük Qayıdış prosesini ölkənin sosial-iqtisadi inkişafında qazanılan nailiyyətlərin ayrılmaz tərkib hissəsinə çevirib. Azərbaycanın qarşıdakı illərdə daha mürəkkəb çağırışların və zəngin imkanların mövcudluğu ilə seçilən yeni mərhələyə daxil olmasını, süni intellekt əsaslı texnologiyanın müxtəlif sahələrə tətbiqini nəzərə alan Prezident İlham Əliyev cari il mayın 30-da "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması barədə Sərəncam imzalayıb.

Əminliklə demək olar ki, hazırlanacaq II Dövlət Proqramı birincinin məntiqi davamı olaraq azad olunmuş ərazilərdə məskunlaşmanın artmasında, yeni texnologiyaların tətbiqi sayəsində sənayenin, qeyri-neft sektorunun inkişafına, "yaşıl enerji" potensialından səmərəli istifadəyə, yeni biznes imkanlarını yaratmaqla iqtisadi dirçəlməyə, tarixi irsimizin daha geniş şəkildə bərpasına, təhsil, səhiyyə, mədəniyyət sahələrində yenidənqurmaya və ümumi tərəqqiyə yol açacaq.

**Nail ƏSGƏROV**

## Naxçıvan Muxtar Respublikası üzrə mövsümün taxıl biçininə başlanılıb





Naxçıvan Muxtar Respublikasında taxıl biçini mövsümünə start verilib.

İyunun 19-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Babək rayonunun Yuxarı Uzunoba kəndində fermer təsərrüfatında olub, biçin kampaniyasının gedişi ilə maraqlanıb.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Rafail Quliyev məlumat verib ki, ümumilikdə, bu il muxtar respublikada 17582,6 hektar sahədə taxıl əkilib. Əkin sahələrinin 8275,7 hektarında buğda, 9306,9 hektarında isə arpa əkilib. Bu günədək 2423,3 hektar sahədə biçin aparılıb. Ən yüksək məhsuldarlıq 31,2 sentner olmaqla Şərur rayonunda qeydə alınıb. Ən çox əkin sahəsi isə Babək rayonunun payına düşür. Rayonda 2163,5 hektarı buğda, 2986,1 hektarı arpa olmaqla, ümumilikdə, 5149,6 hektar sahədə əkin aparılıb. Hazırda rayonda 618,9 hektar sahədə biçin başa çatıb.

Məlumat verilib ki, taxıl biçini prosesinin effektiv təşkili üçün Kənd Təsərrüfatı Nazirliyi nəzdində Mərkəzi Qərargah yaradılıb, texnika və avtomobillər hazır vəziyyətə gətirilib və 77 kombayn işə cəlb olunub.





## Ali Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib



İyunun 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının ilk iclası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasını açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bəxtiyar Məmmədov bildirib ki, iclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin (birinci oxunuş) müzakirəsi daxil edilib.

Gündəlik təsdiq olunduqdan sonra Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi Nazirlər Kabineti tərəfindən Ali Məclisə təqdim olunub. Qanun layihəsi deputatlara paylanılıb, İqtisadi siyasət komitəsinin 13 iyun 2025-ci il tarixli iclasında müzakirə olunub.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev qanun layihəsi haqqında məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

"Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə əlaqədar maliyyə naziri Həsən İsmayılov çıxış edib.





Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Hafiz İsmayılbəyli Azərbaycan Respublikası Hesablama Palatasının "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin icrasına dair Qanun layihəsinin təhlili üzrə analitik fəaliyyətin nəticələri haqqında" auditor hesabatını diqqətə çatdırdıqdan sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Bununla da Ali Məclisin növbədənkənar sessiyasının ilk iclası öz işini başa çatdırıb.



**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda İğdır-Naxçıvan qaz boru kəməri üzrə paralel auditin yekun hesabatlarının təqdimatı keçirilib





Naxçıvan şəhərində İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair aparılmış paralel auditin yekun hesabatlarının təqdimatına həsr olunmuş tədbir təşkil edilib.

Tədbir öncəsində iştirakçılar Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə tər çiçəklər qoyublar. Sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı dahi rəhbərin həyat və fəaliyyətinə dair eksponatlar haqqında ətraflı məlumat verilib.





Təqdimat mərasimində Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və Türkiyə Respublikası Hesablama Məhkəməsinin sədri Metin Yenerin rəhbərlik etdikləri nümayəndə heyətləri iştirak ediblər. Həmçinin Azərbaycan Respublikası Milli Məclisinin komitə sədrləri Azər Əmiraslanov və Sadiq Qurbanov, Dövlət Neft Şirkətinin vitse-prezidenti Elşad Nəsirov, Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov, digər dövlət və hökumət rəsmiləri tədbirdə yer alıblar.

Toplantı zamanı ali audit orqanları arasında həyata keçirilmiş paralel auditin nəticələri təqdim olunub. Layihə çərçivəsində auditin əhatə etdiyi sahələr, xüsusilə investisiya qoyuluşları üzrə əldə edilmiş nəticələr müzakirə edilib. Hesabatların əsas məqamları ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, paralel audit Azərbaycan Respublikası Hesablama Palatası və Türkiyə Respublikası Hesablama Məhkəməsi arasında 2022-ci ildə imzalanaraq yenilənmiş Anlaşma Memorandumu çərçivəsində həyata keçirilib.

Səfər çərçivəsində Vüqar Gülməmmədov və Metin Yener arasında ikitərəfli görüş də baş tutub. Görüş zamanı gələcək birgə fəaliyyətlərin perspektivləri müzakirə olunub.

## Naxçıvanın inkişafında İğdır-Naxçıvan qaz boru kəmərinin mühüm rolu olacaq



“Azərbaycan bu gün bütün dünyanın o cümlədən, xüsusən də Avropanın enerji təhlükəsizliyində böyük rol oynayır. Öz ərazisinə isə müəyyən səbəblərə görə başqa dövlətlərin ərazisindən keçməklə artıq qazını çatdırır”.

Bu sözləri Naxçıvanda keçirilən İğdır-Naxçıvan qaz boru kəməri üzrə paralel auditin yekun hesabatlarının təqdimatı tədbirindən sonra jurnalistlərə müsahibəsində Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov deyib.

Komitə sədri qeyd edib ki, enerji inkişaf deməkdir. Enerji hər bir ölkənin inkişafında xüsusi çəkiyə malikdir. Xüsusilə də Naxçıvanın inkişafında bu boru xəttinin mühüm rolu olacaq.

“İnanıram ki, qısa bir müddətdə Naxçıvana alternativ olaraq bu boru xəttinin çəkilməsi muxtar respublikada dayanıqlı, fasiləsiz enerjinin təmin olunmasında mühüm rol oynayacaqdır”, – deyə Sadiq Qurbanov əlavə edib.

## “Dövlət sektorunda audit” mövzusunda keçirilən təlimlər yekunlaşıb



Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan şəhərinə səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində tədbir keçirilib.

Tədbirdə Türkiyə Hesablama Məhkəməsinin sədri Metin Yenerin rəhbərlik etdiyi nümayəndə heyəti, Milli Məclisin komitə sədrləri Azər Əmiraslanov və Sadiq Qurbanov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, eləcə də Hesablama Palatası və universitetin digər əməkdaşları iştirak ediblər.

Görüşdə çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlıq münasibətləri barədə ətraflı məlumat verib. O bu əməkdaşlıq çərçivəsində “Dövlət sektorunda audit” mövzusunda keçirilən təlimlərdən danışaraq onların dövlət maliyyə nəzarətinin gücləndirilməsi və kadr hazırlığının təkmilləşdirilməsi baxımından əhəmiyyətini vurğulayıb. Vüqar Gülməmmədov təlimdə yüksək fəallıq göstərmiş tələbələrin gələcəkdə peşəkar kadr kimi yetişdirilməsinin palatanın hədəflərindən biri olduğunu bildirib. Eyni zamanda tələbələrə elmi fəaliyyətlərində və gələcək karyeralarında uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək Hesablama Palatası ilə əməkdaşlığın universitet üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb, tədbiri vacib və çoxdan gözlənilən əlamətdar görüş adlandırıb.

Elbrus İsayev təlim proqramlarının tələbələrin peşəkar bilik və bacarıqlarının artırılmasına töhfə verdiyini qeyd edib. Rektor, eləcə də universitetin bakalavriat və magistratura təhsil səviyyəsində təhsil alan Mühasibat uçotu və audit, Maliyyə və digər bu profilli ixtisaslardan olan tələbələrin cəlb olunduğu təlim proqramını muxtar respublikanın kadr ehtiyaclarının qarşılanması prosesinə müsbət təşəbbüs olaraq dəyərləndirib.

Tədbir zamanı “Dövlət sektorunda audit” mövzusunda keçirilən təlim proqramının əsas istiqamətləri və nəticələri barədə ümumi təqdimat da nümayiş etdirilib. Təqdimatda təlimlərin məqsədi, proqramın strukturu və əhatə etdiyi mövzular barədə geniş məlumat verilib. Bildirilib ki, ümumilikdə, üçaylıq müddəti əhatə edən təlimlərdə universitetin 22 tələbəsi iştirak edib və onların nəticələri qiymətləndirilib. Qiymətləndirmə prosesi bir neçə mərhələdə həyata keçirilib, ilkin mərhələdə test, sonra yazılı imtahan, daha sonra isə müsahibələr təşkil olunub.

Sonra Naxçıvan Dövlət Universiteti tərəfindən təlimin təşkilində göstərdikləri dəstəyə görə Hesablama Palatası nümayəndələrinə təşəkkürnamələr, plaketlər və hədiyyələr təqdim edilib.

Sonda təlim proqramını uğurla başa vuran tələbələrə nəticələrinə uyğun sertifikatlar təqdim olunub. Tədbir konsert proqramı ilə davam edib.

Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Hesablama Palatası və NDU arasında 18 fevral 2025-ci il tarixdə imzalanmış Əməkdaşlıq Memorandumu çərçivəsində həyata keçirilib.

## Bu ilin sentyabr ayında bütün türk cümhuriyyətləri ilə bağlı gözəl xəbərlərimiz olacaq



“Türkiyə Respublikasının Hesablama Məhkəməsi ilə Azərbaycan Hesablama Palatası tərəfindən önəmli layihələrdən biri olan İğdır-Naxçıvan təbii qaz kəməri proyekti birgə fəaliyyət nəticəsində həyata keçirilib. Bu işləri ötən il İğdırda bir protokolun imzalanması ilə başlatdıq. Müddət tamamlandı və birillik zaman içərisində hər iki yüksək dövlət təşkilatı işləri uğurla həyata keçirdi”.

Bu sözləri Türkiyə Respublikası Hesablama Məhkəməsinin sədri Metin Yener Naxçıvan şəhərində İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair aparılmış paralel auditin yekun hesabatlarının təqdimatına həsr olunmuş tədbirdə jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Türkiyə tərəfindən BOTAŞ, Naxçıvan tərəfindən isə SOCAR firmaları tərəfindən həyata keçirilən bu proyekt iki ölkə arasındakı böyük layihələrdən olmaqla bərabər, iki ölkənin böyük təşkilatları arasındakı ortaq fəaliyyətdə bir ilk idi: “Bununla iki ölkə arasındakı münasibətlər daha da möhkəmləndi, bərabər iş görməkdən də önəmli, görülən işləri dünya standartlarına uyğun təqdimatını etdilər. Bu iki ölkənin hesablama təşkilatları adına qürurverici haldır. Azərbaycan Hesablama Palatasının sədri ilə keçirilən görüşlərdə bu iş birliyini daha da irəli bir nöqtəyə daşıyacağıq. Palata sədrini 15 gün sonra Türkiyədə qarşılayacağıq. Orada da yeni iş birliyinə dair sənəd imzalayacağıq. Bu ilin sentyabr ayında da bütün türk cümhuriyyətləri ilə bağlı gözəl xəbərlərimiz olacaq. Naxçıvanda olduğum üçün böyük məmnunluq duyuram. Bu gözəl qonaqpərvərlik üçün hər kəsə təşəkkür edirik”.

## Mömində xatun türbəsinin bərpa və konservasiyasının aparılması ilə bağlı müqavilə bağlanılması mərasimi keçirilib





Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Rəsm Qalereyasında Möminə xatun türbəsinin bərpa və konservasiyasının aparılması ilə bağlı müqavilə bağlanılması mərasimi və ictimaiyyətin məlumatlandırılması üçün brifinq keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrini icra edən Həsən Seyidov Möminə xatun türbəsinin bərpa və konservasiyası istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələrdən bəhs edib. Qeyd olunub ki, Möminə xatun türbəsinin mövcud vəziyyətinin hərtərəfli tədqiqi və ölçmə işlərinin aparılması üçün ilkin baxış keçirilib. Nəticələr barədə nazirliyə müvafiq sənədlər təqdim olunub. Həsən Seyidov mədəniyyət işçiləri adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə mədəni irsimizə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirib.

“Atelier Erich Pummer GmbH” şirkətinin rəhbəri Erich Pummer çıxış edərək abidənin mövcud vəziyyəti və gələcəkdə görüləcək işlər barədə ətraflı məlumat verib.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, AMEA-nın müxbir üzvü, Naxçıvan Dövlət Universitetinin professoru Hacı Fəxrəddin Səfərli çıxış edərək Möminə xatun türbəsinin tarixi əhəmiyyətindən, bərpa və konservasiya olunmasının vacibliyindən danışıb, bu sahədə gələcəkdə görüləcək işlərlə bağlı düşüncələrini bildiriblər.

Sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi ilə “Atelier Erich Pummer GmbH” şirkəti arasında bərpa və konservasiyasının aparılmasına dair müqavilə imzalanıb.

Media nümayəndələrinin iştirakı ilə brifinq keçirilib.

Qeyd edək ki, Prezident cənab İlham Əliyev cari il may ayının 22-də “Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb.

## “Milli iqtisadiyyat və dövlət idarəçiliyi” mövzusunda təlim olub





İyunun 17-də Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və “Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxsin birgə təşkilatçılığı ilə “Milli iqtisadiyyat və dövlət idarəçiliyi” mövzusunda birgünlük təlim keçirilib.

Təlimi Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov aparıb.

120 nəfərə yaxın iştirakçının qatıldığı sessiyada prezidentli respublika modelinə keçidin vahid və məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsində oynadığı roldan bəhs olunub.

Təlimdə, həmçinin vurğulanıb ki, “Əsrin müqaviləsi” ilə Azərbaycanın beynəlxalq enerji bazarına inteqrasiyası təmin olunub, ölkənin iqtisadi təhlükəsizliyi gücləndirilib. Neft strategiyasının uğurlu icrası, qeyri-neft sektoruna yönəlik addımlar, xüsusilə də aqrar sahədə aparılan islahatlar uzunmüddətli və dayanıqlı inkişafın təməlini qoyub.

İştirakçılar təlim müddətində dövlət idarəçiliyi sahəsində qazanılan təcrübə, iqtisadi strategiyaların formalaşdırılması və icrası, regional inkişafın prioritet istiqamətləri barədə geniş məlumat əldə ediblər. Təlimin ikinci saatında iştirakçılarla interaktiv sessiya keçirilib, onları maraqlandıran suallar cavablandırılıb.

Təlim “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı” çərçivəsində keçirilib.

## Naxçıvanda sertifikatlaşdırma prosesinin keçirildiyi İmtahan Mərkəzinə infotur təşkil edilib





İyunun 18-də Naxçıvan Muxtar Respublikasında ölkə üzrə mərkəzləşmiş qaydada təhsilverənlərin sertifikatlaşdırılması prosesinə başlanılıb. Prosesin təşkil olunduğu Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə yerləşən İmtahan Mərkəzinə dövlət və ictimaiyyət, qeyri-hökumət, eyni zamanda mətbuat nümayəndələrinin sertifikasiya müddətində proseslə tanış olmaları məqsədilə infotur təşkil olunub.

İnfoturda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov iştirakçılara məlumat verərək bildirib ki, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə yaradılan mərkəzdə 300-dən artıq namizəd eyni anda imtahanda iştirak edə bilir.

Mərkəzdə müasir tələblərə cavab verən elektron daşıyıcılar, səs və görüntüləri qeyd edən veb-kameralar quraşdırılıb. Burada müəllimlərin sertifikatlaşdırılması prosesi ilə yanaşı, müəllimlərin və məktəb direktorlarının, məktəbəqədər təhsil müəssisələrinin metodist və tərbiyəçi müəllimlərinin işə qəbulu təşkil olunub.

Həmçinin mərkəzin imkanlarından Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi də istifadə edir.

İyunun 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bir qrup deputatının da mərkəzə infoturu təşkil olunub.

# İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir



***Müxtəlif inkişaf mərhələlərindən keçən müasir dünyada insan hüquq və azadlıqlarının təmin edilməsi demokratik inkişafın ayrılmaz hissəsinə, bəşəriyyətin mənəvi-hüquqi və siyasi ideallarının ali təzahürünə çevrilmişdir. Ləyaqət, ədalət, bərabərlik, hörmət və müstəqillik kimi ortaq dəyərlərə əsaslanan insan hüquqları, cəmiyyətin demokratikliyinin sübutu və vətəndaş cəmiyyətinin yetkinliyinin başlıca meyarı sayılır.***

**Günay RZAYEVA**
*Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)*

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq cəmiyyətin tamhüquqlu və beynəlxalq hüququn müstəqil subyekti kimi tarixin sınağından uğurla çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu, eyni zamanda bəşər sivilizasiyasının idealları olan azadlığı, insan hüquqlarını, ədaləti və sülhü özünün inkişaf yolu seçmişdir.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqlarının təminatı dövlətin ali məqsədi kimi ön plana çıxmışdır. Konstitusiyanın üçdəbir hissəsini bu sahədəki mövcud beynəlxalq hüquq normalarına əsaslanan müddəalar təşkil etməkdədir. Əsas Qanunumuzda insan və vətəndaş hüquq və azadlıqlarını qorumaq bütün hakimiyyət orqanlarının vəzifəsi kimi müəyyən edilmiş, onun 48 maddədən ibarət üçüncü fəslinin bütün müddəaları insana, onun ləyaqətinə, hüquqlarına hörmət ruhunda yazılmış, insan hüquq və azadlıqları ən yüksək dəyər kimi təsbit olunmuşdur.

Müasir dünyada hər bir dövlətin demokratik dəyərlərə sadiqliyi onun insan hüquqlarına münasibəti ilə müəyyən olunur. Bu mənada, Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrlərdə ən çox diqqət yetirdiyi sahələrdən biri də insan hüquq və azadlıqlarının qorunması olmuşdur. Ümummilli Liderimiz özünün proqram xarakterli çıxışlarının birində ***"Vəzifəli şəxslərin fəaliyyətini onların insan hüquqlarının qorunmasındakı xidmətlərinə görə qiymətləndirmək lazımdır"*** deməklə insan hüquqlarının müdafiəsinə daim böyük önəm verdiyini diqqətə çatdırmışdır.

Qısa müddət ərzində Ulu Öndər tərəfindən insan hüquq və azadlıqlarının təmini məqsədilə bir sıra mühüm tədbirlər həyata keçirilmiş, müvafiq olaraq qanunvericilik aktları qəbul olunmuş, fərman və sərəncamlar imzalanmışdır.

Əsas Qanunun ardınca qəbul edilən qanunvericilik aktları Azərbaycan Respublikasının siyasi və iqtisadi həyatının hüquqi əsasda qurulması, hüquqi islahatların həyata keçirilməsi üçün mühüm addım olmaqla, insan hüquq və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi daim ön plana çıxarmışdır.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra humanizm ənənələrinin təməli qoyulmuş, əfvetmə və amnistiya institutları təşəkkül tapmış, 1993-cü ildə ölüm hökmünün icrasına moratorium qoyulması və Milli Məclisin 10 fevral 1998-ci il tarixli Qərarı ilə həmin cəza növünün ləğv edilməsi də insan hüquqlarının qorunması sahəsində atılan mütərəqqi addımlardan olmuşdur.

Yaşamaq, şəxsi toxunulmazlıq və azadlıq hüquqlarının təmin edilməsi baxımından ölkəmizdə dəfələrlə tətbiq olunmuş əfv və amnistiya aktları xüsusi əhəmiyyət kəsb edir. Əfvetmə institutunun formalaşması istiqamətində də real addımlar atmaqla ölkəmizdə cəzanın humanistliyi və adekvatlığını, tərbiyəvi əhəmiyyətini daim önə çəkən Ümummilli Lider 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının tarixində ilk əfv fərmanını imzalamış və həmin ildən etibarən Azərbaycanda əfv institutu bərpa olunmuşdur.

Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış bir sıra fərman və sərəncamlar ölkəmizin Konstitusiyasında təsbit olunmuş insan və vətəndaş hüquqlarının daha səmərəli təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Azərbaycanın müxtəlif inkişaf mərhələlərində insan hüquq və azadlıqlarının daha səmərəli təmini sahəsində mühüm sənədlər qəbul olunmuşdur. Ulu Öndər Heydər Əliyev tərəfindən "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərman imzalanmış və daha sonra həmin il 18 iyun tarixdə ölkəmizdə insan hüquqları sahəsində ilk strateji sənəd olmuş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmişdir.

Ötən müddət ərzində Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər uğurlu həllini tapmış, ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişlənmiş, respublikamız bir sıra beynəlxalq müqavilələrə qoşulmuş, yeni məhkəmə sistemi formalaşmış, konstitusion nəzarət mexanizmi olan Konstitusiya Məhkəməsi yaradılmışdır. 2001-ci il dekabr ayının 28-də isə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edilmiş, ölkəmiz üçün yeni bir qurum olan Müvəkkil təsisatı yaradılmış, hüquq-mühafizə orqanlarının fəaliyyəti təkmilləşdirilmişdir. "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" 2002-ci il 24 dekabr tarixli Azərbaycan Respublikasının Konstitusiya Qanunu isə ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquqi islahatların və milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması prosesinin məntiqi davamı kimi çox mühüm əhəmiyyət kəsb etmişdir.

> **Heydər ƏLİYEV**
> **Azərbaycan xalqının Ümummilli Lideri:**
>
> ***"Konstitusiya, birinci növbədə, dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".***

Ulu Öndər Heydər Əliyevin siyasətini və Onun strateji inkişaf konsepsiyasını hərtərəfli reallaşdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən müasir məzmunlu dövlətçilik siyasəti nəticəsində Azərbaycanda dünyəvi, hüquqi və demokratik dövlət qurulmuş, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi üçün hərtərəfli təminatlar yaradan vətəndaş cəmiyyəti formalaşdırılmış, davamlı sosial-iqtisadi inkişaf təmin edilmiş, xalqımızın maddi rifahı yaxşılaşdırılmış və ictimai həyatın bütün sahələrində, o cümlədən məhkəmə-hüquq sistemində islahatlar və yeniləşmə prosesləri dərinləşmişdir.

Azərbaycanda, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da insan hüquqlarının inkişafına və təkmilləşdirilməsinə daim diqqət yetirilir, yeni idarəçilik mexanizmi formalaşdırılır. Muxtar respublikada hüquq institutlarının təkmilləşdirilməsi, insan hüquqlarının müdafiəsi mexanizmlərinin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması, əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsi məqsədilə ölkə başçısı İlham Əliyev tərəfindən 2 noyabr 2006-cı il tarixdə "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" Fərman imzalanmışdır. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikamızda hüquq sisteminin müasirləşdirilməsi prosesinə uyğun olaraq insan hüquqlarının daha etibarlı müdafiəsi təmin edilmiş, vətəndaşların hüquq institutlarına inamı artırılmış, onların müraciət etmək imkanları asanlaşmışdır.

Muxtar respublikada insan hüquqlarının müdafiəsi ilə bağlı hüquq institutlarının inkişafı tarixində ən mühüm tədbirlərdən biri də Müvəkkil təsisatının yaradılması olmuşdur. Müvəkkil təsisatı bu gün fəaliyyətini preventiv və müstəqil monitorinq mexanizmi funksiyalarının icrası, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması, beynəlxalq təcrübə mübadiləsi, əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi və hüquqi maarifləndirmə, bu sahədə dövlət orqanları və bələdiyyələrlə, media subyektləri ilə əməkdaşlığın davamlı inkişaf etdirilməsi istiqamətində quraraq davam etdirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 dekabr 2022-ci il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təsis edilməsi Naxçıvan Muxtar Respublikasında effektiv idarəçiliyin təmin edilməsinə, idarəetmənin təkmilləşdirilməsinə, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasına xidmət etmiş, dövlət orqanlarının fəaliyyətində şəffaflığın, operativliyin, çevikliyin artırılması, xidmətlərin daha keyfiyyətli, rahat və müasir innovasiyalarla həyata keçirilməsi hüquq institutlarına, o cümlədən Ombudsman təsisatına inamı artırmışdır.

Həmçinin muxtar respublikada vəkillik sahəsində mühüm islahatlar aparılmış, muxtar respublikanın rayonlarında vəkil büroları yaradılmış, gənc hüquqşünaslardan ibarət gənc hüquq korpusu formalaşdırılmış, vəkillərin sayı ötən illərlə müqayisədə artmışdır. Ölkə Prezidenti tərəfindən həyata keçirilən bu kimi tədbirlər məhz insan hüquq və azadlıqlarının səmərəli təmininə xidmət edir.

Dövlət idarəçiliyində yeni düşüncə tərzinin formalaşdırılması məqsədilə muxtar respublikada "ASAN xidmət" mərkəzinin istifadəyə verilməsi vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalmasına, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə, şəffaflığın artırılmasına, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə müsbət təsir göstərmiş, vətəndaş məmnunluğu təmin edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş siyasi, iqtisadi və diplomatik nailiyyətlər, ölkənin müdafiə qüdrətinin artırılması istiqamətində ardıcıl həyata keçirilən məqsədyönlü siyasət nəticəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, bununla da Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasına nail olunmuşdur. 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq ölkə başçısı cənab İlham Əliyev tərəfindən 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilmişdir.

Ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında Konstitusiyada təsbit edilən fundamental hüquq və azadlıqlar, həmçinin əhalinin müxtəlif sosial qruplarının hüquqlarının daha səmərəli təmin olunması və müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir, onların hüquq bərabərliyinin davamlı təmin edilməsi daim diqqət mərkəzində saxlanılır.

# Naxçıvanda son zəng tədbirləri təşkil edilib

*İyunun 14-də Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində “Son zəng” tədbirləri keçirilib. Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov və elm və təhsil nazirinin müavini Həsən Həsənli Heydər Əliyev adına tam orta məktəbdə keçirilən “Son zəng” tədbirlərində iştirak ediblər.*




Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə Heydər Əliyev adına tam orta məktəbin direktoru Məlahət Həsənova qonaqları salamlayaraq məktəbin nailiyyətləri haqqında məlumat verib.

Elm və təhsil nazirinin müavini Həsən Həsənli məzunları təbrik edərək bildirib: “Bu gün aparılan islahatlar təhsilimizin inkişafı üçün möhkəm zəmin yaradır.

Məzunlarımız üçün bu gündən həyatın yeni dövrü, məsuliyyətli, çevik qərarlar qəbul etməli olduğu günlər başlayır. Sizi bu həyata məktəb, müəllimləriniz hazırlayıb. Bu səbəbdən, ilk növbədə, sizi yetişdirən müəllimlərə təşəkkür etməlisiniz.

Siz xoşbəxt şagirdlərsiniz ki, Heydər Əliyev adına məktəbin məzunlarısınız. Bunun böyük rəmzi mənası var.

Bu məktəb artıq 21 ildir, fəaliyyət göstərir. Gəlin, 21 il öncəyə nəzər salaq. 21 il öncə torpaqlarımız işğal altında idi. Beynəlxalq arenada bu faktla barışmağa, mübarizəmizi dayandırmağa, bunu qəbul etdirməyə çalışırdılar. Lakin bu gün biz ərazi bütövlüyünü öz gücünə bərpa etmiş, suverenliyini qazanmış bir ölkədə yaşayırıq. Bu tarix hər birimiz üçün bir dərs, həyat nümunəsidir.

Bizim milli ideyaya, milli missiyaya bağlılığımız da məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Əgər siz həyatda uğura nail olmaq istəyirsinizsə, bunun üçün Ulu Öndərin həyatından gözəl nümunə ola bilməz.

Onun davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında, qəhrəman ordumuz sayəsində şəhidlərimizin canı, qanı bahasına torpaqlarımız işğaldan azad olunub.

Bu gün Xocalıda, Xankəndidə, Şuşada, Cəbrayılda da məzunlarımız var. Onlar “Son zəng” tədbirlərini öz doğma yurd yerlərində qeyd edirlər.

Bilikli, bacarıqlı gənclərin yetişməsində məktəbin, müəllimlərin üzərinə böyük missiya düşür. Bu gün məzun gününə yığışdığımız bu məktəbdə bir neçə ay sonra “Bilik Günü” qeyd olunacaq. Beləliklə, proses davam edəcək. Bu işi biz hər il daha yaxşı görə bilsək, düşünürəm ki, qısa müddətdə böyük nəticələr əldə etmiş olacağıq. Bura qədər gəldiyimiz yol sübut edir ki, biz bunun öhdəsindən gələ bilərik.







Bu gün təhsil sahəsində böyük islahatlar aparılır, müəllimlərin rifahının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülür. Müəllimlərin əməkhaqqı islahatı, təlimi, karyera yüksəlişi ilə bağlı görülən işlər təhsilimizin inkişafı üçün möhkəm zəmin yaradır.

Əziz məzunlar, ali təhsil növbəti mərhələ, yeni bacarıqlara nail olmaq üçün bir imkandır. Xüsusilə son illərdə ali təhsil müəssisələrinə qəbul olanların sayı artmaqdadır. İnanıram ki, istər Naxçıvanda, istərsə də ölkəmizin digər yerlərində və ya ölkə xaricində təhsilini davam etdirən gənclərimiz səriştəli, peşəkar kadrlar olaraq dövlətimizə xidmət edəcəklər.

Hər birinizə uğurlar arzu edir, müvəffəqiyyətlərinizin davamlı olmağını arzu edirəm”.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov məzunları, müəllimləri və məzunların valideynlərini təbrik edərək bildirib ki, bu gün Naxçıvan Muxtar Respublikasında 3992 şagird məzun olur.

Təhsil naziri Elxan Nəcəfov qeyd edib: “Mən inanıram ki, bugünkü məzunlar Böyük Zəfərin şagirdləri olaraq suverenliyi tam bərpa olunmuş ölkəmizdə gələcəyə doğru inamla addımlayacaq, cənab Prezidentin rəhbərliyi altında Vətənimiz adına əldə edilmiş bütün uğurlara sahiblənəcək, həmin uğurları gələcəyə daşıyacaqlar. Nazir tədbirdə şagird nailiyyətlərindən də danışaraq qeyd edib ki, bu il tam orta təhsil səviyyəsi üzrə 467 məzun 200-250, 302 məzun 250-300 intervalında bal toplayıb. 2 məzun isə 300 bal toplayaraq ölkə üzrə ən yüksək nəticəni göstərib.

Qeyd olunub ki, cari ildə, həmçinin Naxçıvan Muxtar Respublikasında ümumi orta təhsil səviyyəsi üzrə keçirilmiş buraxılış imtahanlarının nəticələrində də ötən illə müqayisədə müsbət dinamika müşahidə olunub. Belə ki, 200-249 bal intervalında nəticə göstərən şagirdlərin sayı ötən ilə nisbətən 25, 250-300 bal intervalında 29, 200-300 bal aralığında nəticə göstərən şagirdlərin sayında isə 26 faiz artım olub”.

Muxtar respublikada istedadlı şagirdlərin aşkara çıxarılması və onların elmi biliklərə yönəldilməsi istiqamətində də ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildiyini bildirən nazir diqqətə çatdırıb ki, ölkə üzrə təşkil olunan Bebras, Cerebry, Bilbacar, Hakaton Respublika fənn müsabiqələrində, həmçinin Astronomiya, LütfiZadə, Hippo, Kenquru, Qərbi Azərbaycana qayıdış, VII İngilis dili və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən Nəsirəddin Tusi adına fizika-riyaziyyat fənləri və Yusif Məmmədəliyev adına kimya və biologiya fənləri üzrə II Kimya-biologiya olimpiadalarında şagirdlərin iştirakı təmin olunub. Qeyd olunub ki, olimpiadalarda, ümumilikdə, 59 şagird qalib olub.

Tədbirdə məzunların valideynləri və şəhid anaları çıxış edərək məzunları təbrik edib, onlara uğurlar arzulayıblar.

Tədbirin bədii hissəsində Naxçıvan şəhər körpələr evi-uşaq bağçalarının balaca fidanları, məktəbin birinci sinfini bitirən şagirdlər, məzunlar rəqs və musiqi nömrələri ilə çıxış ediblər.

## Xankəndi, Cəbrayıl, Şuşa, Xocalı məktəblərində məzunlarımız var və bu günləri görmək bizə qismət olub



Bunu elm və təhsil nazirinin müavini Həsən Həsənli Naxçıvandakı Heydər Əliyev adına tam orta məktəbdə təşkil olunan “Son zəng” tədbirində jurnalistlərə müsahibəsində deyib.

O bildirib ki, Heydər Əliyev adına məktəbin məzunları olmağın böyük rəmzi mənası var: “Bu gün, həqiqətən, bütün ölkə üçün təhsil bayramıdır. Bu gün biz Azərbaycan vətəndaşlarını artıq müstəqil həyata hazırlayıb yola salırıq. Onlara uğurlar arzu edirik. Bizim üçün də xüsusilə qürurverici gündür ki, bu bayram həm də azad Qarabağda qeyd olunur. Bu gün Xankəndi, Cəbrayıl, Şuşa, Xocalı məktəblərində məzunlarımız var və həmin günləri görmək bizə qismət olub. Biz özümüzü xoşbəxt nəsil hesab edə bilərik. Buna sevinməkdə, həqiqətən də, bizim haqqımız var və mən bu münasibətlə bütün müəllimləri, valideynləri, pedaqoji kollektivi, təhsil işçilərini təbrik edir, onlara uğurlar arzu edirəm”.

“Bu gün 4 məktəbdə məzun tədbiri keçirilir. Düşünürəm ki, biz gələcəkdə daha çox sayda gəncimizi orada təbrik edə biləcəyik. Baxın, torpaqlarımızın azad olunmasından cəmi 5 il sonra artıq həmin ərazilərdə məktəb infrastrukturunun mövcudluğu, Azərbaycanın milli təhsil standartlarının və proqramlarının tətbiq olunması, eyni zamanda ilk məzunların olması və qeyd edilməsi bizim üçün xüsusi rəmzi məna daşıyır. Biz buna böyük sevinc və qürur hissi ilə yanaşırıq. Əminəm ki, həmkarlarım da bu gün həmin şagirdlərlə, həmin kollektivlə birlikdə bu əlamətdar günü qeyd edirlər”, – deyə nazir müavini qeyd edib.

# 14 saylı Naxçıvan Regional Bölməsinin yaranmasının təqdimatı keçirilib





Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin 14 saylı Naxçıvan Regional Bölməsinin yaranmasının təqdimatı keçirilib.

Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin inzibati binasında keçirilən tədbirdə xidmət rəisinin müavini Tural Abbasov çıxış edərək bölmənin vəzifələri, səlahiyyətləri və hüquqları barədə məlumat verib.

Bildirilib ki, xidmətin əsas iş prinsipi və vəzifələri Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən su və su təsərrüfatı obyektlərindən istifadə və onların mühafizəsi qaydalarına, sanitariya-gigiyena, ekoloji, hidrogeoloji, hidroloji, texnoloji tələbləri nəzərdə tutan normativ-hüquqi aktların tərtib olunmasına, su mühafizə zonalarının ərazisindən istifadə rejiminə nəzarət etmək, monitorinqlər aparmaq, monitorinqlərin nəticəsinə uyğun olaraq regionlarda baş verən neqativ hadisələrə nəzarət edib qarşısını almaqdan ibarətdir.

Təqdimat mərasimində Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəisi Rafiq Aslanovun müvafiq əmrləri oxunub, yeni yaradılan qurumlara təyinatlar təqdim edilib.

Təqdimat mərasimində xidmətin Suların istifadəsinə və mühafizəsinə nəzarət şöbəsinin müdiri Ataxan Bədəlov suların istifadəsi və mühafizəsi sahəsində bölmənin qarşısında duran vəzifələr və digər orqanlardan alınmış səlahiyyətlər, Hüquq və insan resursları şöbəsinin müdir müavini Ruslan Salmanov suların istifadəsi və mühafizəsi sahəsində normativ-hüquqi aktlar, qanunvericiliyin praktik tətbiqi: nəzarət, araşdırma və hüquqi məsuliyyət məsələləri barədə danışıblar.

Mərasimdə, həmçinin 14 saylı Naxçıvan Regional Bölməsinə yeni təyin olunan rəis Səttar Nəsirov bölmənin vəzifələri və qarşısında duran hədəfləri, Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Malik Rzayev suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin yerli bölməsinin yaradılmasının su ehtiyatlarının idarə edilməsinə gözlənilən dəstəyi haqqında danışıb.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Aparat rəhbəri Şövqü Əliyev yeni yaradılan qurumun muxtar respublika üçün perspektivlərindən danışıb, təyinat münasibətilə kollektivi təbrik edib.

Xidmətin rəis müavini Tural Abbasov çıxış edərək bildirib ki, Azərbaycanda Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin yaradılması illərdir ki, bu sahədə olan çətinliklərin aradan qaldırılması üçün şərait yaradacaqdır.Yeni struktur olaraq bu sistemin formalaşması suların istifadəsi və mühafizəsinə böyük töhfələr verəcəkdir.

## 690 balla muxtar respublika birincisi




Dövlət İmtahan Mərkəzi tərəfindən ölkə üzrə I və IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanlarının nəticələri açıqlanıb. Nəticələrə əsasən I ixtisas qrupu üzrə Naxçıvan Muxtar Respublikasında ən yüksək nəticəni Naxçıvan şəhərində fəaliyyət göstərən Qızlar Liseyinin məzunu Sehrin Cəfərova göstərib. O, buraxılış və qəbul imtahanlarının nəticələrində, ümumilikdə, 690 bal toplayaraq muxtar respublika üzrə ən yüksək nəticəni əldə edib.

Sehrin Cəfərova sevincini “Şərq qapısı” qəzeti ilə bölüşüb: “Mən Qızlar Liseyinin məzunuyam. Arzum Bakı Ali Neft Məktəbində kimya yönümlü bir ixtisas üzrə təhsil almaqdır. Bu məqsədə çatmaq üçün gecəgündüz səylə çalışdım. I ixtisas qrupu üzrə imtahan verərək yüksək nəticə qazandım. Bu uğurda ailəmin və müəllimlərimin rolu əvəzsizdir. Onlar daim yanımda oldular, mənə inandılar və dəstək göstərdilər. Məncə çox oxumaqdan daha vacibi düzgün və planlı şəkildə oxumaqdır. Hər gün konkret məqsəd və istiqamətlə çalışmaq daha səmərəli nəticə verir”.

Qeyd edək ki, Qızlar Liseyi son illərdə təhsil sahəsində qazandığı nailiyyətlərlə seçilir. Bu nəticə təkcə lisey üçün deyil, bütün muxtar respublika üçün uğurlu göstəricidir.

## Ölkə ərazisində qeydiyyatda olan tarix-mədəniyyət abidələrinin vahid pasportu olacaq




Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülən abidələrlə bağlı elmi və faktiki məlumatları özündə əks etdirən sənəd – pasport vahid forma və qaydada deyil, hər bir qurum (Mədəniyyət Nazirliyi, Turizm Agentliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruq İdarəsi) tərəfindən fərdi qaydalarda hazırlanırdı. Bu baxımdan daşınmaz mədəni irs nümunələrinin qorunması və pasportlaşdırılmasını həyata keçirən bütün dövlət orqanları üçün ümumi, vahid qaydaların və vahid pasport formasının təsdiq edilməsi zərurəti yaranmışdı.

Bu məqsədlə Mədəniyyət Nazirliyi tərəfindən "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik təklif edilib. Həmin təkliflər əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən daşınmaz mədəni irs nümunələrinin qorunması və pasportlaşdırılmasını həyata keçirən bütün dövlət orqanları üçün ümumi, vahid qaydalar və pasport forması təsdiq olunub.

Qanunvericiliyə edilən yeni dəyişiklik mədəni sərvətə vahid qaydalar əsasında pasportun verilməsi, abidə pasportunun nümunəvi formasının müəyyən olunması, eləcə də ölkə üzrə pasportlaşma ilə bağlı elektron məlumat bazasının yaradılması üçün hüquqi əsas yaradır.

## Ali Məclisin deputatları tərəfindən may ayında 478 vətəndaşın iştirak etdiyi 50 vətəndaş qəbulu keçirilib

2025-ci ilin may ayında VII çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 45 deputatı tərəfindən yerlərdə 478 vətəndaşın iştirak etdiyi 50 vətəndaş qəbulu keçirilib. Müxtəlif sahələri (işlə təminat, sosial yardım, mülkiyyət hüququ və s.) əhatə edən 208 müraciətin həlli istiqamətində iş aparılıb, aid qurumlarla əlaqələndirilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## NDU "Qlobal Dayanıqlı İnkişaf" Konqresində öz stendi ilə iştirak edib



İyunun 16-19 tarixlərdə Türkiyənin İstanbul şəhərində "Times Higher Education" reytinq agentliyinin təşkilçiliyi ilə keçirilən "Qlobal Dayanıqlı İnkişaf" Konqresində Naxçıvan Dövlət Universiteti də iştirak edib. 90-dan artıq ölkənin iştirak etdiyi konqresdə Birləşmiş Millətlər Təşkilatının 17 Dayanıqlı İnkişaf məqsədlərinə dair Naxçıvan Dövlət Universitetində görülmüş işlər barədə kataloq, broşür və flayerlər təqdim edilib, iştirakçılar və tərəfdaşlarımıza geniş məlumat verilib.

Konqresdə Azərbaycanın 12 aparıcı universiteti dayanıqlı inkişaf sahəsində müsbət təcrübənin beynəlxalq auditoriyaya təqdim edilməsi üçün Azərbaycan pavilyonunda yer alıb.

## Qan ver, həyat qurtar



Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Ümumdünya Qan Donoru Gününə həsr olunmuş "Qan ver, həyat qurtar" adlı könüllü qanvermə aksiyası keçirilmişdir.

Aksiyada Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əməkdaşları və könüllü vətəndaşlar iştirak etmişdir. Toplanmış qan ehtiyacı olan xəstələrin müalicəsində istifadə olunmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Qan Bankı və Qanköçürmə Mərkəzində saxlanılmışdır. Aksiyanın əsas məqsədi qan ehtiyatlarının artırılması və sağlamlıq imkanları məhdud olan xəstələrə dəstək göstərmək, həmçinin vətəndaşlarda sağlamlıq və humanitar məsuliyyətə diqqətin artırılmasıdır.

## "Murovdan gələn səda"nın izi ilə

*Yeni nəşrlər*




Bir kitabın ilk oxucusu olmaq insanda fərqli duyğular oyadır. Həm də ilk oxucusu olduğun kitab haqqında qələmə alacağın cümlələrin məsuliyyəti bir az da artır. Çünki kitabı oxumayanlarda kitab haqqında ilk təəssüratı sənin fikirlərin yaradacaq. Naxçıvan mətbuatından yaxşı tanıdığımız jurnalist, "Şərq qapısı" qəzetinin əməkdaşı Ramiyə Əkbərovanın itkin şəhid İbrahim Vəlizadə haqqında qələmə aldığı kitabla tanışlıq da məni belə bir məsuliyyətin öhdəçiliyini daşımağa sövq edir.

Əsrimizin 20-ci ilində Müzəffər Sərkərdənin əmri ilə başlanan torpaqlarımızın azad olunması uğrunda Vətən müharibəsi Ramiyə xanımın qələmini odlu-alovlu nizəyə, kəskin bir süngüyə çevirir. Vətənin hər qarış torpağı üçün başlanan zəfər yürüşü onun qələmə aldığı yazılarda – cümlələrində, fikirlərində vətənpərvərlik duyğusuna çevrilərək oxucuların qəlbinə yol tapır.

Əslində, qələmə aldığı, "Şərq qapısı"nın səhifələrində dərc edilmiş hər yazısı, hər bir sətri onun vətənpərvərlik düşüncələrinin türk ruhunun dərinliyindəki cəng həvəsindən, savaş ruhundan qopub gəldiyini bir daha göstərir. Onun bu mövzudakı yazılarını oxuduqca özünü o qəhrəmanların arasında, onlardan biri kimi hiss edir, sanki sən də əlində silah o qəhrəmanlarla birgə döyüşürsən.

Şəhid ailələri, qazilərlə iş, onlar haqqında bir-birindən dəyərli materialların hazırlanması Ramiyə xanımın jurnalistlik fəaliyyətindən, yaradıcılığından qırmızı xətt kimi keçir desək, yanılmarıq. Bir zabit yoldaşı olaraq həyatının bir hissəsini döyüş bölgələrinə yaxın yaşayış məntəqələrində keçirməsi, əsgər və zabitlərin, onların ailələrinin həyatlarına yaxından bələd olması onun bu mövzuya həssaslığını daha aydın şəkildə ortaya qoyur.

Bu baxımdan onun sayca 4-cü olan, Şərur elinin qəhrəman oğlu İbrahim Vəlizadə haqqında onun ailəsinin, dostlarının və döyüş yoldaşlarının xatirələrini toplayıb qələmə aldığı "Murovdan gələn səda" kitabı Vətən müharibəsində qazanılan Zəfərin 5-ci ilinə dəyərli töhfə kimi dəyərləndirilməlidir.

İtkin şəhidimiz İbrahim Vəlizadə adını tarixə yazanda adı kiçik kəndin sərhədlərini çoxdan aşıb bütün Azərbaycanı dolaşırdı. O artıq kiçik bir kəndin övladı, bir ata-ananın oğlu yox, böyük Vətənin, milyonların övladı oldu. Bunu qazandı öz mərdliyi, vətənsevərliyi, qəhrəmanlığı ilə.

Ramiyə xanımın şəhidin atası Səməd atanın düşüncələrindən, arzularından yola çıxaraq qələmə aldığı kitab oxucuda şəhid haqqında dolğun məlumat yarada bilir. Xurşud ananın "Gözümün nuru, sən Vətənin sönməz işığı ol", – dediyi övladı öz arzularına qovuşaraq Vətən torpaqlarının düşmən tapdağından azad edilməsində bütün varlığı ilə iştirak etdi.

Kitabın hər sətri oxucuda İbrahimin ömür yolu haqqında müəyyən təsəvvür yaratmaqla bərabər, Vətən sevgisinin də təzahürünü ən incə detallarına qədər göstərir. Eyni zamanda biz şəhidimizin valideynləri – Xurşud ananın, Səməd atanın öz oğulları barədə hələ illər əvvəlki gələcək arzularını, həm oğulları haqqında qürurlu xatirələrini, həm də onların nigaranlıqlarını zərrə-zərrə hiss edirik. Hər nə qədər kədərli və ağır olsa da, bu eyni zamanda valideyn qürurunun, əzəmətinin təcəssümünü bizə əks etdirir.

Oğlunun xidmət etdiyi, yaşadığı yerləri, hətta alış-veriş etdiyi mağazaları bir-bir gəzən, Qarabağın hər qarışında İbrahimdən bir iz, bir soraq tapmaq ümidi ilə addımlayan Səməd atanın, "Yaşayıram ki, birdən İbrahim gəlsə, məni görsün. Gələr məni görməz, onda İbrahim necə dözər?" – deyən Xurşud ananın hər sözündə, hər kəlməsində, aldığı hər nəfəsində, Vətən üzərindəki hər addımında yaşayır İbrahim. Bir də qardaşı İlkinin yeni doğulan, əmisinin adaşı olan körpəsində – İbrahim Vəlizadədə yaşayır İbrahim.

Düz 5 il keçib 44 günlük savaşın bitməsindən. Gözləri yenə də kəndə gələn yollara dikilən ailənin hisslərini, duyğularını ən incə çalarlarına qədər əks etdirən kitab fotolarla tamamlanır, bütövləşir. İstər ailə fotoları, istərsə də İbrahimin həyatının müxtəlif dövrlərini əks etdirən fotolar onu sevənlərin xatirələri ilə bütövləşərək oxucunun qəlbinə yol tapacaq.

Bir də əminəm ki, kitabı oxuyanların təsəvvüründə canlanacaq, qəlbinin ən incə hissəsinə toxunacaq, qardaş sevgisinin, bağlılığının gücünü göstərən şəhidimizin ən balaca qardaşı Vurğunun bu fikirləri olacaq: "Hərdən gedirəm gizlincə otağına girirəm İbrahimin. Baxıram şəkillərinə gözlərinin içinə ki, qoy məni unutmasın. Axı o gedəndə Ümidlə İlkin böyük idi, onlar dəyişməyib. Mən isə beş ildə gör necə dəyişmişəm. Deyirəm, birdən gəlsə, məni görsə, tanımaz ona görə hər gün özümü ona xatırladıram ki, böyümüş halımı görəndə tanısın məni".

"Canın o torpaqdan dəyərlidirsə, üstündə gəzdiyin torpaq sənin Vətənin ola bilməz", – deyən İbrahim Vəlizadə özü də Vətənin bir parçasına çevrilib Vətəni canından üstün tutduğunu bir daha sübut etdi. Şair Musa Yaqubun dili ilə desək:

*Bəlkə də, borcundan çıxmadım, Vətən,*
*Ömür bahar deyil bir də qayıtsın.*
*Ölsəm də, qoynunda qoy ölüm ki, mən*
*Çürüyüm bir ovuc torpağın artsın!*

Jurnalist Ramiyə Əkbərovanın qələmə aldığı bu kitab, kitabda toplanan fotolar İbrahim Vəlizadənin xatirəsinə ehtiram və onun qəhrəmanlığının gələcək nəsillərə ən yaxşı daşıyıcısı olacaq.

**Məmməd BABAYEV**
*"Şərq qapısı" qəzetinin baş redaktor müavini*

# Söz yenə müqəddəsdir, söz yenə azaddır

***Azərbaycan milli mətbuatı – 150***



Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinin nəşri ilə əsasını qoyduğu milli mətbuatımız fəaliyyət göstərdiyi dövrdən böyük inkişaf yolu qət etmişdir. Milli Mətbuat Gününü bu il daha həvəslə gözləyir, 150 illik qocaman mətbuatımızın yubileyini xüsusi cənfəşanlıqla qeyd etmək üçün səbirsizlənirik. Prezident cənab İlham Əliyevin "Azərbaycan Milli Mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Sərəncam bu sahənin inkişafına, jurnalist əməyinə verilən dəyərin bariz göstəricisidir. Bu sevindirici xəbəri eşitdikdən sonra illərini mətbuata, jurnalistika sahəsinə həsr edən, təcrübəsi ilə gənc jurnalistlərin yoluna işıq tutan, Azərbaycanın Əməkdar jurnalisti 74 yaşlı ***Məlahət Allahverdiyeva***nın mövzu ilə bağlı təəssüratlarını öyrənmək istədik. Ömrünün 42 ilini jurnalistikaya həsr edən Məlahət xanımla görüşüb, həmsöhbət oluruq.

Öyrənirik ki, Məlahət Allahverdiyeva 1974-cü ildə Azərbaycan Dövlət Universitetini (indiki Bakı Dövlət Universiteti) Jurnalistika ixtisası üzrə bitirmiş, təyinatla Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində əmək fəaliyyətinə başlamışdır. Müxtəlif illərdə kiçik redaktorluqdan şöbə müdirliyinə qədər yol keçən müsahibim deyir: "Jurnalistika cəmiyyətə informasiya çatdırmaq, ictimai fikri formalaşdırmaq və insanları maarifləndirmək məqsədi daşıyan fəaliyyət sahəsidir. Bu sahəni özünə peşə seçənlər aldıqları xəbərləri araşdırır, təhlil edir və müxtəlif informasiya vasitələri ilə təqdim edirlər. Hər bir jurnalist obyektivliyi, dəqiqliyi, etik qaydaları gözləməlidir".

Müsahibimin sözlərinə görə, işə başladığı ilk vaxtlarda radio və televiziya bir yerdə idi. Yəni burada çalışan hər bir jurnalist həftə ərzində həm televiziya, həm də radio üçün verilişlər hazırlayırdı. O deyir ki, belə işləmək elə də çətin deyildi. Çünki efir vaxtımız az idi. Lakin buna baxmayaraq, çətinliklərimiz də olurdu. O vaxtlar iş şəraiti elə də yaxşı deyildi. Verilişlər ağ-qara fonda çəkilirdi. Çəkiliş lentləri az idi. Çox vaxt fotodan istifadə edirdik. Nəqliyyat, operator baxımdan çatışmazlıqlarımız var idi, səsyazma, montaj işləri çətin idi. Verilişlərin hamısı canlı gedirdi. Zaman ötüb, dövr dəyişdikcə mətbuatda, eləcə də radio və televiziyada yeniliklər yarandı. Radio və televiziya sahələri ayrıldı. Mən isə radionu seçdim. 1991-ci ildən yenidən müstəqillik qazanan Azərbaycanda yeni mətbuat sahələri, radio və televiziya kanalları yarandı. Xalqımız söz azadlığı qazandı, bu azadlığın dad-tamını aldı. Bu gün mətbuat, radio və televiziya hər kəsin söz demə tribunasına çevrilib. Onlayn platformalar, sosial media – bütün bunlar informasiya dövrünün simasını dəyişib. Lakin istər kağız üzərində, istərsə də elektron ekranlarda bir həqiqət dəyişməz qalıb: "Söz yenə müqəddəsdir, söz yenə azaddır".

Məlahət Allahverdiyeva bildirdi ki, 22 iyul 1875-ci ildə əsası qoyulan Azərbaycan mətbuatı 150 illik tarixi ərzində çətin, lakin şərəfli bir inkişaf yolu keçib. Bu yol maarifçilikdən başlayaraq milli mübarizəyə, müasir dövrdə isə söz azadlığına qədər uzanır. Yeni nəşr olunan çoxsaylı qəzet və jurnallar cəmiyyətin sosial və mədəni həyatında fəal rol oynayır. İnternet mediası informasiyanın sürətli yayımına, yeni növ jurnalistikanın yaranmasına səbəb olub. Bu gün Azərbaycan mətbuatı obyektivliyi ilə cəmiyyətə xidmət edən informasiya mənbəyinə çevrilib. Bu yolu davam etdirən gənc jurnalistlər də qarşıya çıxan çətinlikləri dəf etməyi, ilk növbədə, obyektivliyi, dəqiqliyi qorumağı bacarmalıdırlar.



İllərin verdiyi təcrübə ilə gənc jurnalistlərə örnək olan Məlahət Allahverdiyeva məsləhət görür ki, yaxşı yazmaq üçün çox oxumaq, mütaliəni diqqətdə saxlamaq, ölkəmizdə, eləcə də dünyada baş verən hadisələri daim izləmək, etibarlı mənbələrdən istifadə etmək lazımdır. Tənqidlərdən qorxmaq lazım deyil. Tənqid öyrənmək üçün, bəlkə də, bir fürsətdir. Bu şərtlə ki, öz peşəkar fəaliyyətinizi qoruya biləsiniz, obyektiv olasınız. Qısa, maraqlı yazmağa çalışın. Ümidvaram ki, bütün bunlar sizə uğur gətirəcək.

Məlahət xanımın timsalında media sahəsində əhalinin maariflənməsi, onlara lazımi informasiyanın vaxtlı-vaxtında çatdırılması yolunda gecə-sini-gündüzünə qatan bütün həmkarlarımızı təbrik edir, "Sözünüz kəskin, qələminiz iti olsun!"– deyirik.

**Türkanə ƏSƏDOVA**





# 50 yaşlı musiqi və sənət beşiyi

Naxçıvan Muxtar Respublikasının mədəni həyatında mühüm yer tutan, hazırda Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Musiqi Kolleci 50 illik zəngin tarixi ilə ölkənin musiqi mədəniyyətinin inkişafına böyük töhfələr verib. Kollec yarıməsrlik dövr ərzində Azərbaycan musiqi sənətinə yüzlərlə istedadlı musiqiçi, bəstəkar və müəllim qazandırıb.

Hələ sovet dönəmində Naxçıvan şəhərinin mədəni quruculuq işlərinə xüsusi diqqət yetirilirdi. Dahi Üzeyir Hacıbəyli də bu prosesin öncüllərindən biri idi. O, Naxçıvana səfəri zamanı yerli musiqi və teatr mühitinin inkişafı ilə bağlı görüşlər keçirir, yerli musiqiçilərlə görüşərək onların fəaliyyətinə dəstək olurdu. Dahi bəstəkarın Naxçıvana səfərləri, əsasən, musiqi, teatr və mədəniyyət sahəsində inkişafı təşviq etmək məqsədi daşıyır, Azərbaycan musiqisinin klassik nümunələrini Naxçıvanda yaymaq üçün tədbirlər təşkil edirdi. Üzeyir Hacıbəyli Naxçıvanda xalq çalğı alətləri orkestrinin yaradılması təşəbbüsünü irəli sürmüş və bu orkestrə Məmməd Məmmədovu dirijor və bədii rəhbər təyin etmişdi. O, Naxçıvan şəhərində musiqi məktəblərinin açılmasını da vacib sayırdı. Bunun ifadəsidir ki, 1937-ci ildə Naxçıvan şəhərində 1 nömrəli uşaq musiqi məktəbi yaradılmışdır.

1974-cü ildə Naxçıvan Muxtar Respublikasının yaranmasının 50 illik yubiley tədbirində iştirak etmək üçün Naxçıvana gələn Ulu Öndər Heydər Əliyevin şəxsi tapşırığı və təşəbbüsü ilə 28 aprel 1975-ci ildə Naxçıvan orta ixtisas musiqi məktəbinin təməli qoyulmuşdur. Bu, musiqi təhsilinin region səviyyəsində inkişafına yeni bir səhifə açmışdır. Məktəbin yaradılmasında əsas məqsəd peşəkar musiqiçi kadrların hazırlanması, milli musiqi mədəniyyətinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi idi.

1975-1976-cı illərdə ilk tələbə qəbulu keçirən məktəbə 4 ixtisas üzrə 31 nəfər cəlb olunmuşdur. İlk illərdə 4 musiqiçi-pedaqoq ixtisaslı musiqiçi kadrların hazırlanmasında xidmət göstərmişdir. Hazırda isə məktəbdə 400-ə yaxın tələbə təhsil alır. 100-dən çox alitəhsilli pedaqoq isə onların təlim-tərbiyəsi ilə məşğul olur. Müsbət haldır ki, bu müəllimlərin əksəriyyəti orta ixtisas təhsilini bu texnikumda almışdır.

Qeyd edək ki, bu təhsil ocağı 1975-1992-ci illərdə Naxçıvan Orta İxtisas Musiqi Məktəbi, 1992-2005-ci illərdə Üzeyir Hacıbəyov adına Naxçıvan Musiqi Texnikumu, 2005-ci ildən isə Naxçıvan Musiqi Kolleci adını daşıyır. Hazırda kollecdə Ümumi nəzəri fənlər, Xalq çalğı alətləri, Orkestr alətləri və vokal sənəti, Fortepiano, Ümumtəhsil və humanitar fənlər, Aktyor sənəti və dekorativ-tətbiqi sənət, Ümumi fortepiano və konsertmeysterlik olmaqla, 8 fənn birləşmə komissiyası fəaliyyət göstərir.

2021-ci ildən etibarən kollecdə bir neçə ildir ki, fəaliyyətini dayandırmış xalq çalğı alətləri orkestri, simfonik orkestr və nəfəsli alətlər orkestri yenidən fəaliyyətini bərpa etmiş, bir neçə yeni qrup yaradılmışdır: "Muğam" ansamblı, "Gənclik" instrumental ansamblı, "Harmoniya" instrumental ansamblı, "Estrada" ansamblı, Xor kollektivi, "Naxçıvanqala" ritm qrupu, "Sazçalanlar" ansamblı, "Nəfəsli alətlər" ansamblı, "Sevincin inciləri" qanunçalanlar ansamblı, "Qədim musiqi alətləri" ansamblı, "Kamançaçalanlar" ansamblı, "Qarmonçalanlar" ansamblı, Vokal qrupu, "Bəmzi cahan" rəqs və "Yallı" qrupları, "Teatr qrupu" və sair.

Bu yaradıcı kollektivlərin repertuarları Azərbaycan xalq və bəstəkar musiqisinin ən gözəl nümunələri ilə yanaşı, dünya klassikasının inciləri ilə zəngindir. Kollektivlər peşəkar ifaları ilə respublikada keçirilən festivallarda, dövlət tədbirlərində və beynəlxalq səviyyəli musiqi yarışlarında çıxış edərək böyük uğurlar qazanmışlar.

Musiqi kollektivləri öz fəaliyyəti ilə respublikada və xarici ölkələrdə keçirilən mühüm tədbirlərdə respublikamızı layiqincə təmsil edirlər. Belə ki, kollecin tələbələri 1977-ci ildə Bakıda keçirilən ifaçıların I respublika müsabiqəsində, 1980-1988-ci illərdə Bakı, Gəncə, Şuşa şəhərlərində keçirilən "Xarıbülbül" Beynəlxalq Folklor Festivalında, 1980-1983-cü illərdə Bakıda keçirilən "Naxçıvan günləri"ndə, 1984-cü ildə Naxçıvan Muxtar Respublikasının yaranmasının 60 illik yubileyi ilə əlaqədar Xankəndidə, 2000-2004-cü illərdə ifaçıların VIII və IX Ümumrespublika müsabiqələrində iştirak etmiş və uğur qazanmışdır. 2008-ci ildə Ümummilli Lider Heydər Əliyevin 85 illik yubileyinə həsr olunmuş "Gənc ifaçıların I respublika müsabiqəsi"ndə kollecin I kurs tələbəsi müsabiqənin baş mükafatı olan "Qran-Pri", 2019-cu ildə Bakı şəhərində keçirilən "Testene Art Baku" Beynəlxalq incəsənət festival-müsabiqəsində kollecin bir tələbəsi "Qran-Pri" mükafatına, kollecin 1 müəllimi I yerə, digər tələbələri isə II və III yerlərə layiq görülmüşdür.

2021-ci ildə Nyu-Yorkda keçirilən "American Edition" Beynəlxalq müsabiqə-festivalında kollecin müəllimi, Prezident mükafatçısı Sevinc Babayevaya "Qran-Pri" mükafatı verilmişdir.

Kollec yalnız tədris və ifaçılıq fəaliyyəti ilə deyil, eyni zamanda elmi-pedaqoji sahədə də fəallığı ilə bir sıra uğurlara imza atıb. Burada çalışan müəllimlər elmi yaradıcılıqla məşğul olur, musiqi təhsili, metodika və ifaçılıq sənətinə dair araşdırmalar aparırlar. Müəllim heyətinin bir çoxu müxtəlif respublika və beynəlxalq səviyyəli elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış edir, elmi məqalələri mətbuatda dərc olunur. Onların bu fəaliyyəti Azərbaycan musiqi təhsilinin nəzəri bazasının zənginləşdirilməsi üçün mühüm əhəmiyyət daşıyır.




2023-cü il 29-30 dekabr tarixlərdə Musiqi Kollecinin birləşmiş simfonik orkestri ilk dəfə Van Yüzüncü il Universitetində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konsert proqramı ilə çıxış etmişdir. Bu möhtəşəm tədbirdə səsləndirilən əsərlər həm Azərbaycan milli musiqisinin dərin ruhunu, həm də beynəlxalq musiqi dünyasına uyğun peşəkarlığı əks etdirmişdir.

2024-cü ilin aprel ayında isə həmin kollektiv ilk dəfə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konsert proqramı ilə çıxış etmişdir.

Bu gün ixtisaslı gənclərin aşkara çıxarılaraq musiqi təhsilinə cəlb olunması, xalqımıza məxsus musiqi ənənələrinin yaradılmasında, xalq musiqimizin, eləcə də dünya və klassik musiqinin təbliği və öyrənilməsi sahəsində də məktəbin fəaliyyəti təqdirəlayiqdir.

Kollecdə fəaliyyət göstərən müəllimlərin əməyi yüksək qiymətləndirilmiş, onlar müxtəlif fəxri adlarla təltif olunmuşlar. Kollecin 7 müəllimi "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti", 7 nəfər "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi", 1 nəfər "Azərbaycan Respublikasının Əməkdar artisti", 3 nəfər "Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi", 2 nəfər "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adlarına layiq görülmüşlər.

Ulu Öndərimiz Heydər Əliyev tərəfindən təməli qoyulan, bu il 50 yaşı tamam olan Naxçıvan Musiqi Kollecinin bu dövr ərzində 4000-dən çox məzunu olmuşdur. Məktəb özünəməxsus tədris ənənələri, yaradıcı kollektivləri, elmi və ifaçılıq uğurları ilə seçilərək Azərbaycan musiqi təhsilində layiqli yerini tutmuşdur. Bu gün də məktəb həm təhsil, həm yaradıcılıq, həm də elmi sahələrdə ölkəmizin musiqi mədəniyyətinə və təhsil sisteminə dəyərli töhfələr verməyə davam edir. Kollektivimizin müəllim və yaradıcı heyətini yubiley münasibətilə ürəkdən təbrik edir, təhsil sahəsində yeni uğur və nailiyyətlər arzulayırıq.

**Məhəbbət BABAYEVA**
*Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Musiqi Kollecinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi*






# Xalq teatrı uğurlarını artırır

Naxçıvan Muxtar Respublikasında Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı, Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, Naxçıvan şəhər, Şərur, Ordubad, Babək və Şahbuz rayon Xalq teatrları fəaliyyət göstərir.

Biz də fəaliyyəti dövründə bir sıra uğurlara imza atmış Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrına üz tutduq. Teatrın yaranma və inkişaf tarixi, yeni tamaşa haqqında məlumat əldə etmək üçün teatrın rejissoru, Azərbaycan Respublikasının Əməkdar artisti, 2021-ci ildə Prezident mükafatına layiq görülən Nemət Sultanovla həmsöhbət olduq. O bildirdi ki, Şərurda əvvəlcə dram dərnəyi yaradılıb, sonra dərnək teatra çevrilib, Malik Muxtarın "Zəngulənin zəngləri" və Qəni Hüseynovun "Nicat" tamaşalarından sonra 1981-ci ildə teatr "xalq teatrı" statusu alıb.



Hazırda teatrda Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Kimya Babayeva, mədəni-maarif müəssisələrinin işçiləri və həvəskar aktyorlar fəaliyyət göstərirlər. 25-dən çox tamaşanın səhnəyə qoyulduğunu söyləyən müsahibim dedi ki, bu tamaşalar içərisində dramaturgiyamızın əsasını qoyan M.F.Axundovun, həmçinin S.S.Axundovun, Nəcəf bəy Vəzirovun, rus klassiki A.S.Puşkinin əsərləri səhnələşdirilib. 2008 və 2019-cu illərdə Bakı şəhərində keçirilən Xalq teatrlarının I və II baxış müsabiqələrində Şərur Rayon Xalq Teatrı "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah cadükuni məşhur" və "Motsart və Salyeri" tamaşaları ilə çıxış edərək ikinci yerə layiq görülüb.

Öyrəndik ki, Nemət Sultanov böyük türk yazıçısı və dramaturqu Əziz Nesinin "Öldür məni, canciyər", Seyfəddin Dağlının "Adı sənin, dadı mənim" ikipərdəli komediyalarının quruluşunu verib. Nəsimi Məmmədzadə ilə birlikdə "Ac həriflər" və "Tamahkar"ı yeni quruluşda bərpa ediblər.

Müsahibim deyir ki, Şərur Rayon Xalq Teatrı Naxçıvan teatrına çoxlu töhfələr verib. Ən uğurlu tamaşalarından biri "Varlı qadın" tamaşası olub. Teatrın 35 illiyində adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi əks etdirən "Toy" tamaşası da teatrsevərlər tərəfindən razılıqla qarşılanıb.

Aprel ayının 25-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında İbrahim Sadiqovun "Molla Nəsrəddinin beş arvadı" komediyası tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb, böyük rəğbət görüb.

Qeyd edək ki, yaxın günlərdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvanda "Xalq teatrları festivalı – 2025" keçirilib və R.Təhmasib adına Şərur Rayon Xalq Teatrı İ.Sadiqovun "Molla Nəsrəddinin beş arvadı" komediyası ilə festivalda iştirak edib. Türk dünyasının kamillik simvolu Molla Nəsrəddinin beş arvadı ilə olan macəralarından, onların bir-birinə qurduğu oyunlardan bəhs edən komediya tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Ümid edirik ki, Şərur Rayon Xalq Teatrı öz fəaliyyətini daha da inkişaf etdirərək yeni-yeni uğurlara imza atacaq.

**"Şərq qapısı"**

# Naxçıvan tarixinin bütün dönəmlərində mədəni mühitini qoruyub saxlayıb

"Şərq qapısı" qəzeti ilə hələ 9-cu sinifdə oxuyarkən əməkdaşlığa başlamış Sarvan İbrahimov o illərə qayıdır: "1967-68-ci illərdə yazılarım dərc olunardı. Məktəbli kimi bu məni çox həvəsləndirirdi. O zaman qəzetin baş redaktoru Rəşid Qazıbəyov idi. Atam Hüseyn İbrahimov da 60-cı illərdə qəzetə rəhbərlik etmişdi. Odur ki, "Şərq qapısı" bizim ailə üçün hər zaman doğma olub, heç vaxt əlaqələri kəsməmişik. İstər oxucu kimi, istərsə də müəllif kimi". Sarvan müəllim redaksiyamıza bu dəfə də əliboş gəlməmişdi. Ana babasının ömür yolunu arxiv sənədləri əsasında yazdığı "Mirzə Ələkbər Süleymanov: maarif fədaisi, teatr xadimi" adlı kitabını redaksiyamıza hədiyyə gətirmişdi. Sarvan İbrahimov deyir ki, 1878-ci ildə Çernyayevski uşaqları təhsilə cəlb etmək üçün Naxçıvana gəlib. Qori Müəllimlər Seminariyasında oxumağı seçənlərdən biri də məhz babası Mirzə Ələkbər Süleymanov olub. Seminariyanı bitirdikdən sonra Naxçıvanda yeni üsullu məktəblərin açılmasında xidmətlər göstərib. "Bu kitabı nəşr etməklə örnək ömür yolunu gənclərə çatdırmaq istədim", – deyir Sarvan İbrahimov. Ziyalı mühitdə, Xalq yazıçısı Hüseyn İbrahimovun ailəsində böyüyən müsahibimiz mədəniyyət sahəsində 25 il çalışıb. 10 il Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinə rəhbərlik edib. Ona ilk sualımız da Azərbaycan ictimai fikir tarixində Naxçıvan və mədəni mühiti barədə oldu.






***– Dünyanın ən qədim məskənlərindən biri kimi Naxçıvan diyarı həm də ilklərlə doludur. Təbiətin ilkləri ilə yanaşı, Şərqdə ilk memarlıq məktəbi, nücum elmi, ilk realist rəssamlıq məktəbi, realist şeir nümunələri, tarixi roman məktəbi, tragikomediya mövzusunda olan tamaşalar, Atabəylər dövrünə aid dövlətçilik ənənələri və sair mənəvi, tarixi, maddi nümunələr Naxçıvanı fərqləndirmiş, bu zəngin diyara olan elmi marağı artırmış, alimlərin tədqiqat təfəkkürünü həmişə qaynaqlandırmışdır. Müəllifi məlum olmayan, Naxçıvan barədə yazılmış tarixi "Əcaib-əd-dünya" əsərində Naxçıvanın ümumi həyatı haqqında olan maraqlı məlumatlar elmi, tarixi nöqteyi-nəzərdən böyük dəyərə malikdir.***

– Gəmiqaya, Nuh Peyğəmbərin qəbri, Duz dağı, böyük memar Əcəminin daş, sənət yadigarları, ulu dağların sinəsindəki yaşayış yerləri, mixi yazılar, daş qoç heykəlləri, sənət, ədəbi nümunələr və sair Naxçıvan diyarının qiymətli, əbədi, pozulmaz tarixidir. Bu diyar tarixin bütün dönəmlərində öz əzmkarlığını, yurda, torpağa sədaqətini uca tutmuş, təlatümlərə, çətinliklərə sinə gərərək həyata, dövrana layiq mənəvi, maddi, ölməz əsərlər yaratmışdır.

Böyük Əcəmi demişkən: "Təlatüm içrə bir sükunətdə daim ruzigar, biz gedərik, fəqət əsər qalar yadigar". Bəli, təbiətdə, sənətdə yaradılan əsərlər bu yurdun qədirbilən insanları tərəfindən qorunmuş, mühafizə edilmiş, ona yeni, əbədi naxışlar vuraraq bu günümüzə qədər yaşatmış və yaşadılar.

Qədim Naxçıvanın bütün dövrlərini yüksək qiymətləndirərək, dəyərləndirərək, bizə miras qalmış tarixi uca tutmaqla müstəqillik illərində qazandığımız uğurlara, nailiyyətlərə nəzər yetirmək bir növ keçmişimizə hesabat vermək qədər dəyərlidir.

***"... Müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir. Müstəqil Azərbaycan dövləti günü-gündən möhkəmlənəcək, inkişaf edəcək və müstəqilliyini heç zaman əldən verməyəcəkdir..."*** Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bu müdrik qənaəti doğma Azərbaycanımızın inkişafı, tərəqqisi, qələbələrlə, zəfərlərlə dolu olan xoşbəxt, firavan günlərlə həmahəng səslənir.

***– Müstəqillik illərinin əvvəllərində Naxçıvan mədəni mühitini necə səciyyələndirərsiniz?***

– Ölkəmizin ayrılmaz tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasının həyatında müstəqillik illəri silinməz, əbədi reallıqlarla zəngindir. Ulu Öndərin 1990-cı ilin iyun ayında Naxçıvana gəlməsi, burada yaşayıb fəaliyyət göstərməsi, 1991-ci ilin sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Naxçıvan diyarını o dövrün burulğanlarından, sözün əsl mənasında, xilas etdi.

O illər müstəqilliyimiz üçün həlledici illərdi. Çünki müstəqilliyə gedən yol məhz o dövrdə Naxçıvandan başlamışdı. Ulu Öndərin təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda dövlət bayrağı kimi qaldırılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də dediyi kimi, 1991-1993-cü illərdə Azərbaycanın səriştəsiz rəhbərliyinin, ayrı-ayrı qrupların və şəxslərin mənafelərinə xidmət edən siyasətin dövlətə ağır zərbələr vurduğu bir vaxtda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində işləyən Ulu Öndərin iştirakı ilə keçirilən sessiyaların hər biri Azərbaycan xalqının gələcəyi naminə atılan addım idi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının, himninin, gerbinin bərpası ilə Azərbaycanın suverenliyinin əsasını qoyan, müstəqilliyimizin qarantı olduğunu bildirən Ulu Öndərin təşəbbüsü ilə qəbul olunan qərarlar bir xilaskarlıq missiyası idi. Dahi rəhbər Naxçıvanda olarkən daxili düşmənlərin, bədniyyətli, qərəzli əməllərinin qarşısını almaqla da suverenliyimizin əbədiliyini təmin etdi. Bu tarix bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə həmahəng səslənir.

***– Naxçıvanda mədəni mühitin inkişafına Ulu Öndər böyük qayğı ilə yanaşırdı. Bununla bağlı nə deyərdiniz?***

– Ulu Öndər Naxçıvanda fəaliyyət göstərdiyi illərdə mədəni mühiti diqqət mərkəzində saxlayır, muzeylərlə, teatr tamaşaları ilə maraqlanır, Bakıdan qastrola gəlmiş müğənnilərin konsertində iştirak edirdi. Ulu Öndər Hüseyn Cavidin 110 illik yubiley tədbirində iştirak və çıxışı ilə dahi mütəfəkkirə öz ehtiramını göstərdi. Həmin illərdə Naxçıvan teatrı, həqiqətən, böyük fədakarlıqla çalışırdı. Çətinliklərə baxmayaraq, 1990-1996-cı illərdə "Aydın", (C.Cabbarlı), "Özümüz bilərik" (Ş.Qurbanov), "Şəhidlər" (R.Səməndər), "Ürək çalanlar" (M.S.Ordubadi), "Xeyir və Şər" (İ.Səfərli) "Anamın kitabı", (C.Məmmədquluzadə), "İtilənən xəncərlər" (H.Arzulu), ümumiyyətlə, on beş əsər hazırlanaraq tamaşaçılara təqdim olunmuş, qastrol tamaşaları təşkil edilmiş, maddi və mənəvi sıxıntılara baxmayaraq, digər dövlət tədbirləri, konsertlər yüksək səviyyədə keçirilmişdir.

Hazırda muxtar respublikamızda 289 kitabxana, 233 mədəniyyət evi və klub, 3 dövlət teatrı, 5 xalq teatrı, 2 dövlət filarmoniyası, 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi, Dövlət Film Fondu, yaradıcı təşkilatlar, folklor kollektivləri fəaliyyət göstərir. Qədim diyarımızın ərazisində 1200-dən çox dövlət tərəfindən mühafizə olunan tarix, mədəniyyət və arxeoloji abidə mövcuddur. Abidələr qayğı ilə qorunur, onların siyahıya alınması barədə kitabın nəşr olunması dünya, ölkə və yerli əhəmiyyətli abidələr kimi tanınması mühüm əhəmiyyət kəsb edir. Müqayisə üçün demək olar ki, 1997-ci ildə Naxçıvan Muxtar Respublikasında 13 muzey var idisə, hazırda qədim diyarımızda 28 müxtəlif profilli muzey və rəsm qalereyası fəaliyyət göstərir. Təkcə Naxçıvan şəhərində 12 muzey hər gün ziyarət edilir.

Şahtaxtinskilər Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksi, Gəmiqaya Muzeyi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Xalq şairi Məmməd Arazın ev-muzeyi, Dövlət Bayrağı Meydanı və Muzeyi, Məhəmməd Tağı Sidqinin ev-muzeyi, müstəqillik illərinin ən qiymətli yadigarları sırasındadır. Bu muzeylər xalqımızın milli sərvəti hesab olunur.

***– Teatrla sıx əlaqələriniz var, hətta bu il tamaşaya qoyulan Qriqori Qorinin "Herostratı unudun!" tamaşası ilə bağlı qəzetdə resenziyanız da dərc olunmuşdu. Qeyd etmişdiniz ki, Naxçıvan teatrı teatrın qədim tarixinə yeni bir tamaşanın adını yazdırdı.***

– Müstəqillik illərində öz fəaliyyətini daha da inkişaf etdirən incəsənət sahələrindən biri də Naxçıvan Dövlət Milli Dram Teatrıdır. Qədim ənənələrə malik olan teatr bu illər ərzində bir-birindən mənalı, teatrsevərlərin zövqünü oxşayan əsərləri səhnəyə qoymağa müvəffəq olmuşdur. Ötən illərdə teatr binası yüksək səviyyədə təmir edilmiş, bu sənət ocağının maddi-texniki bazası daha da yaxşılaşdırılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il 31 yanvar tarixli Sərəncamı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi təntənə ilə qeyd edilmişdir.

Naxçıvan teatrının, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının beynəlxalq teatr tədbirlərində dəfələrlə iştirakı, qastrol tamaşaları bu mədəniyyət müəssisələrinin hərtərəfli fəaliyyətindən xəbər verir.

2006-cı ildə yaradılmış Naxçıvan Dövlət Uşaq Teatrı bu günə qədər öz səhnəsində göstərdiyi tamaşalarla balaca teatrsevərlərin dərin rəğbətini qazanmışdır.

Naxçıvan teatrı bu gün özünün yeni inkişaf mərhələsindədir. Teatra son illərdə gənc istedadların axını, teatrın gənc baş rejissoru Mir Qabil Əkbərovun fəaliyyəti bu sənət ocağında böyük dəyişikliklərə səbəb olmuşdur. Teatrın ümumi həyatı, sənəti təbliğ etmək formaları dəyişmiş, bir-birinin ardınca keyfiyyətli əsərlərin tamaşaya qoyulması teatra gələn tamaşaçıların sayını xeyli artırmışdır.



***– Musiqi kollektivlərinin fəaliyyətini necə, qənaətbəxş saymaq olarmı?***

– Müstəqillik illərində Naxçıvanın musiqi həyatında da mühüm dəyişikliklər baş vermişdir. Hazırda filarmoniyada mahnı və rəqs ansamblı, kamera orkestri, estrada orkestri, xor kollektivi fəaliyyət göstərir. Əvvəllər Araz Dövlət Mahnı və Rəqs Ansamblı kimi fəaliyyət göstərən bu kollektiv mövcudluğu dövründə inkişaf edərək tanınmış bir incəsənət müəssisəsinə çevrilmiş, muxtar respublikamızın sərhədlərindən kənarda da tanınmışdır. Kollektiv indiyədək bir çox xarici ölkələrdə qastrol səfərlərində, tədbirlərdə olmuş, Türkmənistanda keçirilən Azərbaycan mədəniyyəti günlərində doğma respublikamızı şərəflə təmsil etmişdir. Filarmoniyanın solistlərinin uğurlu çıxışı Xalq artisti, Azərbaycan Dövlət Kamera Orkestrinin bədii rəhbəri və dirijoru Teymur Göyçəyevin nəzərini cəlb etmiş və onun dəvəti ilə filarmoniyanın solistləri Gülyanaq Fərzəliyeva, Tural Nəcəfov, Elçin Nağıyev, Mübariz Əsgərov kamera orkestrinə dəvət olunmuş və məşqlərdən sonra Naxçıvan filarmoniyasının həmin solistləri T.Göyçəyevin dirijorluğu və kamera orkestrinin müşayiəti ilə Azərbaycan Dövlət Akademik Filarmoniyasının və Gəncə Dövlət Filarmoniyasının səhnəsində maraqlı, zəngin repertuarla çıxış etmişlər.

Naxçıvan Dövlət Filarmoniyası Estrada Orkestrinin, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının yaradılması, Şərur Xalq Yallı Ansamblının, "Şərur qönçələri" uşaq yallı ansamblının, "Gülümhey" folklor qrupunun fəaliyyətinin daha da yaxşılaşdırılması xüsusi qeyd olunmalıdır.

***– Mədəniyyətin təbliği istiqamətində görülən işlər barədə nə deyə bilərsiniz?***

– Müstəqillik illərində Naxçıvan Mədəniyyət Nazirliyinin xətti ilə yüksək poliqrafiya səviyyəsində 40-dan çox müxtəlif adda bukletlər və muxtar respublikanın sənətinə, mədəniyyət tarixinə aid kitablar hazırlanmış, satışa və kitabxanalara verilmişdir. "Naxçıvan teatrının salnaməsi", "Naxçıvan milli geyimləri", "Naxçıvan tikmələri", "Naxçıvan mətbəxi", "Azərbaycan xalçaları. Naxçıvan qrupu", "Naxçıvan xalçaları", "Naxçıvan: 1924-2014", "Naxçıvan-Şərur el yallıları" Naxçıvan diyarının qədim mədəniyyətini, incəsənətini, görməli, gəzməli yerlərini təbliğ etmək baxımından mühüm əhəmiyyətə malikdir.

2009-cu il oktyabrın 14-də Bakıda təşkil edilmiş İslam ölkələrinin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması muxtar respublikamızın tarixinə, elminə, mədəniyyətinə, incəsənətinə verilən qiyməti oldu. Bu etimadı doğrultmaq üçün muxtar respublikada yaddaqalan, maraqlı tədbirlər həyata keçirilib. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda mədəniyyətin bütün sahələrinin inkişafının diqqət mərkəzində saxlanıldığını yüksək dəyərləndirən Sarvan İbrahimov adıçəkilən sahənin inkişafına mühüm töhfə olacağını bildirib: "Dövlət Proqramında bəzi abidələrdə və muzeylərdə, onların yerləşdikləri ərazilərdə təmir-bərpa işləri nəzərdə tutulub. Bu baxımdan Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 may tarixli Sərəncamı tariximizə, keçmişimizə, mədəniyyətimizə, milli dəyərlərimizə sevginin ən ali nümunəsidir. Tarixi yadigarlarımız olan bütün abidələr muxtar respublikamıza gələn turistlərin, qonaqların maraqla izlədiyi və təbliğ etdikləri vacib obyektlər, məkanlar sırasındadır. Son illərdə bu abidələrin yerləşdiyi ərazilərdə həyata keçirilən yerli və beynəlxalq tədbirlər muxtar respublikamızın tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir".

**Ruhiyyə RƏSULOVA**

## DÜNYA xəbərləri

### Qazaxıstanda dördmetrlik kimeşəklə dünya rekordu qeydə alınıb

Qazaxıstanın Pavlodar şəhərində qazax qadınlarının ənənəvi baş örtüyü olan kimeşəkə həsr olunmuş dördmetrlik instalyasiya hazırlanıb və şəhərin mərkəzi bulvarında nümayiş etdirilib. Qazax xalqının ənənəvi mədəniyyətində kimeşək yalnız evli qadınlar tərəfindən taxılırdı və ailədə, eləcə də cəmiyyətdə onların xüsusi statusunu simvolizə edirdi.

Layihənin müəllifi yerli folklor və milli ənənələrdən ilhamlanan tanınmış dizayner və ustad Gülayim Akumbayevadır.

Beynəlxalq "Global BOOK of RECORDS" təşkilatının nümayəndələri bu qeyri-adi baş örtüyünü rəsmi olaraq dünya rekordu kimi qeydə alaraq yeni Dünya Rekordları Kitabına daxil ediblər.

Tədbirdə ağ kimeşək geyinmiş, təxminən, 200 qadın iştirak edib. Onlar bu ənənəvi baş örtüyünə ehtiram göstərmək və onun tanıdılması məqsədilə bir araya gəliblər.

### Çində 11 min 787 dronun iştirakı ilə keçirilən şou Ginnesin Rekordlar Kitabına düşüb

Çinin Çonçin şəhərində 11 min 787 dronun əsrarəngiz sinxron şousu ən çox dronun yaratdığı səma təsviri kimi Ginnesin Rekordlar Kitabına düşüb.

Rekord Çonçin bələdiyyəsinin təşkil olunmasının 28-ci ildönümü münasibətilə keçirilən "Cazibədar Çonçin" şousunda qeydə alınıb. Dron şousu zamanı Çinin mədəni irsi, Çonçinin təbiət və şəhər mənzərələri təsvir olunub. Şou dünyanın ərazisinə (82,4 min kvadratkilometr) və əhali sayına görə (32 milyon nəfər) ən böyük bələdiyyəsi olan Çonçinin inkişafını, onun mədəni və turizm potensialını dünyaya nümayiş etdirmək məqsədi daşıyıb.

"Guinness World Records"un rəsmisi Hou İnq rekordu təsdiqləyib.

### Roma Papası dünyaşöhrətli aktyor Al Paçino ilə görüşüb

Roma Katolik Kilsəsinin rəhbəri Papa XIV Leo Vatikanda Hollivudun kino ulduzu Al Paçino ilə görüşüb.

Roma Papası "Maserati: Qardaşlar" filminin nümayəndə heyətini, o cümlədən "Oskar" mükafatçısı Al Paçino və filmin prodüseri Andrea Yervolinonu qəbul edib.

Görüşdə Katolik Kilsəsinin və filmin mərkəzində olan ortaq dəyərlər, dərin mənəvi və mədəni ilham, ailə birliyi, sevgi, şəfqət və ümumi rifaha töhfə verməyin vacibliyi ilə bağlı müzakirələr aparılıb.

Qeyd edək ki, 85 yaşlı Al Paçino ABŞ-dan olan Papa Leonun görüşdüyü ilk Hollivud ulduzudur.

# Sağlam gənclik, sağlam gələcək

Bu gün cəmiyyətimizin əsas dayaqlarından biri gənclərdir. Onların düzgün istiqamətləndirilməsi gələcək uğurlarına da zəmin yaradır. İdmanla məşğul olmaq, könüllü fəaliyyətlərdə iştirak etmək və sosial layihələrə qoşulmaq gənclərin həm fiziki, həm də psixoloji baxımdan inkişafına müsbət təsir göstərir. Bu gün Naxçıvanda bir neçə gəncin təşəbbüsü ilə yaradılan voleybol komandasının əsas məqsədi fiziki aktivliyi həyatın bir hissəsinə çevirməkdir. Biz də həmin gənclərlə görüşüb həmsöhbət olduq. Komandanın rəhbəri Milad Nəcəfov deyir ki, bu gün passiv həyat tərzi sürən bir çox gənc belə təşəbbüslər sayəsində öz gücünü kəşf edir, yeni dostluqlar quraraq sosiallaşır. Naxçıvanda gənclərin asudə vaxtını səmərəli keçirməsi üçün belə kollektivlər çox azdır. Mən də qərara gəldim ki, gəncləri ətrafıma toplayaraq öz sosial qrupumuzu təşkil edək. Qrupumuzda hər statusdan insanlar, yəni istər tələbə, istərsə də hansısa qurumda çalışan bir çox üzvümüz var. Biz müəyyən vaxtlarda toplaşaraq voleybol, stolüstü tennis kimi idman oyunları oynayır, oxumağı sevən gənclər üçün kitab mütaliələri, əylənmək üçün pikniklər, Naxçıvanımızın səfalı yerlərini gəzmək üçün turlar kimi bir çox sosial aktivlik təşkil edirik.

Müsahibimiz deyir ki, xüsusilə voleybol idman növü gənclərin fiziki sağlamlığının qorunmasında və inkişaf etdirilməsində böyük əhəmiyyətə malikdir. Sosial oyunlar və tədbirlər gənclərin gündəlik stresdən uzaqlaşmasına və əyləncəli vaxt keçirməsinə şərait yaradır. Eyni zamanda qrup fəaliyyətləri gənclərin liderlik bacarıqlarının inkişafına və komanda daxilində effektiv işləməsinə kömək edir.

Milad onu da diqqətimizə çatdırdı ki, belə təşəbbüslər gənclərin sosial, fiziki və emosional inkişafına müsbət təsir göstərir. O, naxçıvanlı gənclərə tövsiyələrini də bildirdi: "Onlar boş vaxtlarını dəyərli keçirmək, telefon və sosial media əvəzinə yaddaqalan, faydalı işlər görmək üçün qrupa qoşula bilərlər. Belə layihələrin davamlılığı və geniş kütlələri əhatə etməsi üçün hər bir gənc əlindən gələni əsirgəməməlidir. Bizə qoşulmaq istəyən gənclər isə həftənin bazar günləri Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində oyunlarda iştirak edə bilərlər".

Komanda üzvlərindən Züleyxa Rüstəmli də söhbətimizə qoşulur. O deyir ki, bu komandanın üzvü olmaq ona çox şey öyrətdi. Ətrafı daha da genişləndi, özünə yeni dostlar tapdı. Dərsdən sonra voleybol oynamaq sağlam həyat tərzidir. Oyun zamanı vaxtın necə keçdiyinin fərqində olmurlar.

Nəticə etibarilə, gənclərin aktiv həyat tərzi yalnız onların şəxsi inkişafı üçün deyil, bütövlükdə, cəmiyyətin gələcəyi üçün də olduqca vacibdir. Sağlam, enerjili gənclik isə güclü və firavan bir dövlətin əsas təməlidir.

✍ **Bülbül QULİYEVA**



## Naxçıvanlı idmançılar "Gladiator Döyüş Liqası"nda yüksək nəticə göstəriblər



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Şərq qapısı"na verilən məlumata görə, Bakıda 15 İyun – Milli Qurtuluş Günü münasibətilə MMA və qrapplinq idman növləri üzrə ilk "Gladiator Döyüş Liqası" təşkil olunub. Azərbaycan MMA və Qrappling Federasiyasının dəstəyi ilə Hövsan Olimpiya İdman Kompleksində reallaşan yarışa Naxçıvanda fəaliyyət göstərən "Turan" Döyüş Klubunun idmançıları da qatılıb.

Baş məşqçi Xəyal Abdullayevin rəhbərliyi ilə klubun 13 üzvü yarışda mübarizə aparıb, ümumilikdə, 6 kəmər və 11 qızıl medal qazanmağa nail olublar.

İdmançılardan bir neçəsi həm kəmər (MMA) döyüşlərində, həm də medal yarışında qalib gələrək ikiqat qalibiyyət sevinci yaşayıb. Kəmər döyüşlərində yeniyetmələr kateqoriyası üzrə Ravil Alməmmədov (69 kq), Əli Qəribov (66 kq), Uğur Bağışov (53 kq), Əbülfəz Cəfərov (47 kq), Nurəddin Əliyev (42 kq) və Tunar Abdullayev (38 kq) qalib olublar. Ravil, Əbülfəz, Nurəddin və Əli, həmçinin qrapplinq növündə qızıl medal qazanmağa müvəffəq olublar. Əli Əbilov qrapplinqdə, Rəhim Quluzadə, Nurəli Əsgərov və Onur Əliyev isə hər iki növdə qızıl medal əldə ediblər.



## Yekun hesabat konsertləri keçirilib



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin sistemində fəaliyyət göstərən uşaq musiqi məktəblərinin 2024-2025-ci tədris ilinin başa çatması ilə əlaqədar olaraq yekun hesabat konsertləri keçirilib.

Konsertlərdə Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri, eləcə də xalq və bəstəkar mahnıları ifa olunub.

### İtmişdir

Culfa rayonu, Bənəniyar kəndində yaşamış Abbasov Nəsir Kərəm oğlunun adına olan $981^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini İsmayılova Səmayə Novruz qızının adına verilmiş JN-$663^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini İsmayılov Nazim İsa oğluna məxsus Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 77, mənzil 29 ünvanında yerləşən evin 7050 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Yaycı kəndində yaşamış Abbasov Məmməd Cəfər oğluna məxsus JN-$697^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Zeyvə kənd sakini Əsgərov Kərəm Vasif oğlunun adına olan JN-1800 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Vayxır kənd sakini Ələsgərov Bəhmən Əli oğlunun adına olan 102013008730 reyestr nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Sərxanlı kəndində yaşamış Quliyev Vidadi Hüseyn oğlunun adına olan JN-$133^{A}$ nömrəli, 10210058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Yusifli Nigar Sənani qızının adına verilmiş 5441 nömrəli gömrük xidməti vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq qəsəbə sakini Fərzəliyeva Sara Hüseyn qızının adına olan JN-$506^{A}$ nömrəli, 10211018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Düylün kəndində yaşamış Rzayeva Hüsniyyə Əli qızının adına olan $120^{A}$ nömrəli, 10700058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kənd sakini Mehdiyev Arif Həsən oğluna məxsus JN-$620^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kənd sakini Rzayev Əhməd Calal oğluna məxsus JN-$333^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kənd sakini Cəfərova Rəfiqə Vəli qızına məxsus JN-$435^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini Hüseynov Hüseyn Şükür oğluna məxsus JN-54 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Maxta kənd sakini İbrahimov Vilayət İbrahim oğluna məxsus JN-68 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 166

Nömrəyə məsul: Nail Əsgərov,
Bülbül Quliyeva
Dizayner: Tacirə Vəliyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.